**Təhsil millətin gələcəyidir!**

*Heydər Əliyev*

# AZƏRBAYCAN MÜƏLLİMİ

Azərbaycan Respublikasının Elm və Təhsil Nazirliyinin orqanı

19 sentyabr 2026-cı il №35 (9188) www.muallim.edu.az muallim@media.edu.az

## Heydər Əliyev Azərbaycan memarlıq təhsilinin banisidir



"Vaxtilə memarlarla da dəfələrlə görüşmüşəm və memarlığa xüsusi hörmətim var. Burada işlədiyim dövrdə tikilən binalarda, yaranan şəhərlərdə Azərbaycan memarlığının inkişaf etdirilməsinə çalışmışam. Bakının və ayrı-ayrı digər şəhərlərimizin tikilməsi, inkişaf etdirilməsi ilə əlaqədar layihələrə memarlarla birlikdə baxıb öz mülahizələrimi bildirmişəm".

Bax səh.2

# "SABAH.city": bilik və texnologiyanın iqtisadi və sosial dəyərə çevrilməsini dəstəkləyən kompleks innovasiya platforması

## Prezident İlham Əliyev "SABAH.city" innovasiya şəhərciyinin birinci mərhələsinin açılışında iştirak edib

"SABAH.city" bilik və texnologiyanın iqtisadi və sosial dəyərə çevrilməsini dəstəkləyən kompleks innovasiya platforması kimi mühüm rol oynamaqla uzunmüddətli perspektivdə insan kapitalının, tətbiqi elmin, texnologiya transferinin və Azərbaycanın innovasiya ekosisteminin rəqabət qabiliyyətinin daha da möhkəmlənməsinə töhfə verəcək.




## Qarabağ Universitetinə yüksək balla daxil olanların sayı artıb



Qarabağ Universitetinə 49 ixtisas üzrə 1235 tələbə qəbul olunub ki, onların yarısı 500 və daha yüksək balla qəbul olunanlardır. Qarabağ Universitetinə qəbul olunan 603 nəfər 500-dən yuxarı bal toplayıb. Ötən il bu say 269 nəfər idi. Qarabağ Universitetinə qəbul olunanların 60 faizindən çoxu qızlardır. 196 nəfər isə 600 və daha yüksək bal toplayıb. 2025-2026-cı tədris ilinə görə bu, 1.5 dəfə artım deməkdir.

Bax səh.5

## "İnanıram ki, uzunmüddətli perspektivdə bu yanaşma ekosistemin özünəməxsus istiqamətində rəqabət apara biləcək səviyyəyə çatmasına kömək edə bilər"



Bax səh.4

## Türkiyə-Azərbaycan Universitetində hazırlanan kadrlar Azərbaycanın gələcək inkişafında fəal iştirak edəcəklər



Bax səh.7

## Süni intellekt dövründə niyə təhsil alırıq?

Bax səh.9

## PISA 2025 Azərbaycanın təhsil sistemi üçün xüsusi əhəmiyyət daşıyır

Bax səh.10

## Tələbələr nəqliyyatda bonuslar qazanacaq

Bax səh.11

## Azərbaycanlı gəncin adı Toronto Universitetində əbədiləşdirilib

Bax səh.12

# MEMARLIQDA MÜASİRLİK VƏ MİLLİLİYİN VƏHDƏTİ

“Şəhərsalma və Memarlıq İli”



## Heydər Əliyev Azərbaycan memarlıq təhsilinin banisidir

**“Vaxtilə memarlarla da dəfələrlə görüşmüşəm və memarlığa xüsusi hörmətim var. Burada işlədiyim dövrdə tikilən binalara, yaranan şəhərlərdə Azərbaycan memarlığının inkişaf etdirilməsinə çalışmışam. Bakının və ayrı-ayrı digər şəhərlərimizin tikilməsi, inkişaf etdirilməsi ilə əlaqədar layihələrə memarlarla birlikdə baxıb öz mülahizələrimi bildirmişəm”.**

**Azərbaycanda memarlıq və şəhərsalma ənənələri xalqımızın mədəniyyət tarixinin ayrılmaz hissəsidir. XX əsrin ikinci yarısında Azərbaycan memarlığının inkişafında xüsusi bir mərhələ başlayıb. Bu mərhələnin əsas xüsusiyyətlərindən biri memarlığın yalnız tikinti sahəsi kimi deyil, şəhərin simasını, milli-mədəni yaddaşı və ictimai mühiti müəyyənləşdirən mühüm istiqamət kimi qəbul edilməsi idi. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 22 dekabr 2025-ci il tarixli Sərəncamı ilə ölkəmizdə 2026-cı ilin “Şəhərsalma və Memarlıq İli” elan edilməsi Azərbaycanın çoxəsrlik şəhərsalma və memarlıq mədəniyyəti ənənələrinin yaşadılması, eləcə də bu sahədə yeni çağırışlara cavab verən mütərəqqi yanaşmaların təşviqi və tətbiqinin genişləndirilməsini nəzərdə tutan mühüm dövlət sənədidir. Sərəncamda memarlıq abidələrinin bərpası və şəhərsalma fəaliyyətinin institusional əsaslarının gücləndirilməsi istiqamətində mühüm addımlar atıldığı qeyd olunur. Ümumtəhsil müəssisələrində 2026-2027-ci tədris ilinin ilk dərslərinin “Şəhərsalma və Memarlıq İli”nə həsr olunması bu sahədə müvafiq maarifləndirmə işlərinin aparılması, gənc nəslin milli-mədəniyyət abidələrimiz barədə biliklərinin zənginləşdirilməsinə xidmət edir.**








### Vətənə hədsiz məhəbbətin ifadəsi

Azərbaycanda şəhərsalma və memarlığın inkişafı, geniş tikinti potensialının yaradılması, yüksəkixtisaslı kadrların hazırlanması və müvafiq layihələrə cəlb olunması baxımından Heydər Əliyevin Azərbaycana rəhbərlik etdiyi 1969-1982-ci illər xüsusi mərhələ təşkil edir.

Ulu Öndər Bakı, Sumqayıt və Gəncə kimi iri sənaye şəhərlərində şəhərsalmanın planlı və elmi əsaslarla aparılmasına xüsusi diqqət verirdi. Dahi lider şəhərsalma məsələlərindən danışaraq bu sahədə Bakıda xeyli işlərin görüldüyünü xüsusi qeyd edir, şəhərsalmanın elmi əsaslarla planlaşdırılması və tikinti işlərinin davam etdirilməsinin paytaxt üçün mühüm məsələ olduğunu xüsusi vurğulayırdı. 1996-cı ildə Heydər Əliyevin Bakıda Beynəlxalq Bankın yeni binasının açılışı mərasimində çıxışı zamanı səsləndirdiyi bu sözlər onun vətənə hədsiz məhəbbətini, ölkəmizdə quruculuq işlərinə yüksək diqqət və qayğısını çox gözəl əks etdirir: “Mən şəhərin hər bir daşını, hər bir küçəsini, binasını özüm üçün doğma hesab edirəm. Əgər hər kəs millətini, şəhərini, Vətənini və paytaxtımız olan Bakını sevirsə, belə hissiyyatla yaşamalıdır”.

### Memarlıq təhsilinə xüsusi diqqət

Müasir dövrdə Azərbaycanda memarlığın və şəhərsalma mədəniyətinin inkişafı təməli 1970-1980-ci illərdə Ulu Öndər Heydər Əliyev tərəfindən qoyulmuş potensiala əsaslanır. Məhz həmin illərdə Bakıda ən böyük abadlıq işləri görülüb, müasir Azərbaycan memarlığının əsərləri sayılan və respublikanın siyasi və mədəni həyatında böyük əhəmiyyəti olan bir sıra memarlıq əhəmiyyəti daşıyan komplekslər, ali təhsil müəssisələri, şəhəri gözəlləşdirən neçə-neçə bina tikilib istifadəyə verilib. Heydər Əliyevin təşəbbüsü sayəsində çox sayda memarlıq abidəsinin bərpası mümkün olub.

Heydər Əliyevin Azərbaycanda memarlığın inkişafına verdiyi töhfələr yalnız şəhərlərin yenidən qurulması, yeni binaların və memarlıq komplekslərinin yaradılması ilə məhdudlaşmırdı. Bu siyasətin mühüm istiqamətlərindən biri də memarlıq və tikinti sahəsi üçün milli kadrların hazırlanması idi.

1969-cu ildə Azərbaycanda rəhbərliyə gəldikdən sonra Heydər Əliyev ali təhsilin, xüsusilə də ölkənin iqtisadi və sosial inkişafı üçün zəruri olan ixtisaslar üzrə kadr hazırlığının genişləndirilməsinə böyük əhəmiyyət verirdi. Ulu Öndərin təşəbbüsü ilə 1975-ci ildə Azərbaycan İnşaat Mühəndisləri İnstitutunun yaradılması bu siyasətin mühüm nəticələrindən biri oldu. Bu ali məktəb sonrakı illərdə Azərbaycanda memarlıq, şəhərsalma və tikinti sahəsində peşəkar kadrların hazırlanmasının əsas mərkəzlərindən birinə çevrildi.

Bu addımın əhəmiyyəti xüsusilə həmin dövrün genişmiqyaslı tikinti və şəhərsalma prosesləri fonunda daha aydın görünür. 1970-1980-ci illərdə Bakıda və Azərbaycanın digər şəhərlərində yeni yaşayış massivlərinin, ictimai binaların, sənaye obyektlərinin, mədəniyyət və idman komplekslərinin tikintisi geniş vüsət alıb. Belə bir şəraitdə yalnız yeni binaların tikilməsi deyil, onları layihələndirəcək, şəhər mühitini formalaşdıracaq, milli memarlıq ənənələrini müasir tələblərlə uzlaşdıracaq mütəxəssislərin hazırlanması da strateji məsələ idi.

Heydər Əliyevin təhsil siyasətinin daha geniş miqyası da bunu təsdiqləyir. Ulu Öndərin rəhbərliyi dövründə Azərbaycanda ali məktəblərin sayı 12-dən 17-yə yüksəlib, kadr hazırlığının əhatə dairəsi genişlənib. Eyni zamanda, Azərbaycanda hazırlana bilməyən ixtisaslar üzrə gənclərin SSRİ-nin aparıcı ali məktəblərinə göndərilməsinə xüsusi diqqət yetirilib. Bu siyasət respublikamızda memarlıq və şəhərsalma sahəsinə də təsir göstərirdi. Azərbaycanda memarlıq təhsilinin və elminin mövcud potensialının inkişaf etdirilməsi, yeni kadr nəslinin yetişdirilməsi ölkədə həyata keçirilən geniş şəhərsalma layihələrinin elmi və peşəkar bazasını gücləndirirdi.

Heydər Əliyevin təşəbbüsü ilə memarlıq və şəhərsalma sahəsində həyata keçirilən layihələrə həm də kadr, elm, təhsil və yaradıcılıq mühitinin formalaşdırılması baxımından da yanaşmaq lazımdır.

### Memarlıq təhsili ilə memarlıq siyasətinin vəhdəti

Özünəməxsus tarixə və inkişaf xüsusiyyətlərinə malik olan Azərbaycan memarlığının tərəqqisində Heydər Əliyevin xüsusi xidmətləri vardır. İlk arzusu memarlıq sənətinin sirlərinə yiyələnmək olan Ulu Öndər sonralar Azərbaycanın rəhbəri kimi tikinti memarlığında da çox dəyərli irs yarada bilib. Memarlığa xüsusi həvəsi olan Ulu Öndər 1939-cu ildə Azərbaycan Sənaye İnstitutunun memarlıq fakültəsinə daxil olsa da, İkinci Dünya müharibəsinin başlanması səbəbi ilə bu sahədə təhsilini başa çatdıra bilməyib. Ümummilli Lider bu xüsusda 15 dekabr 2000-ci il Azərbaycan Dövlət Neft Akademiyasının 80 illiyinə həsr olunmuş təntənəli yubiley mərasimindəki çıxışında bildirirdi: “Mən bu gün buraya, bu binaya gələrkən gəncliyimi xatırladım. 1939-cu ildə mən Naxçıvanda orta məktəbi qurtarandan sonra, - onda 16 yaşım var idi, - Bakıya gəldim. Memarlığa çox həvəsim olduğuna görə, inşaat-memarlıq fakültəsinə daxil oldum. Burada iki ildən bir az çox təhsil aldım. İkinci Dünya müharibəsi təhsilimin yarımçıq qalmasına, həyatımın istiqamətinin dəyişilməsinə səbəb oldu. O vaxtdan 60 il keçir. Bir-iki dəfə öz arxivimə baxanda oxuduğum o iki ildə verdiyim imtahanları bildirən qiymət kitabçasını gördüm. İndi burada siz də arxivdən tapmısınız ki, hansı fənlərdən imtahan vermişəm, hansı qiyməti almışam, orada müəllimlərin imzaları vardır. Düzdür, iki il azdır, ondan 60 il keçibdir. Mən ondan sonra hərbi işdə olmuşam, siyasətlə məşğul olmuşam. Görünür ki, mənim memarlığa olan həvəsimlə yanaşı, bu istedadım da var imiş. Ancaq o illəri heç unutmuram”.

Bununla belə, memarlığa olan dərin marağı Ulu Öndərin gələcəkdə Azərbaycana rəhbərliyi dövründə aydın şəkildə özünü göstərib. Ümummilli Liderin şəhərsalma ilə bağlı qəbul edilən qərarlarında peşəkar yanaşma və sistemli baxış özünü aydın büruzə verib. Heydər Əliyevin memarlıq sahəsində fəaliyyətində təhsil, elm və praktikanın həmahəng inkişafının təmin edilməsi dururdu. Bir tərəfdən yeni memar və mühəndislərin hazırlanmasına şərait yaradılır, digər tərəfdən isə onların biliklərini tətbiq edə biləcəkləri geniş tikinti və şəhərsalma mühiti formalaşırdı.

Bu baxımdan 1975-ci ildə İnşaat Mühəndisləri İnstitutunun yaradılmasını həmin dövrdə aparılan şəhərsalma siyasətinin kadr təminatının mühüm istiqamətlərindən biri kimi qiymətləndirmək olar. Sonrakı mərhələdə həmin ali məktəbin memarlıq və inşaat profilli universitetə çevrilməsi isə bu ənənənin davamlı xarakter daşıdığını göstərir. 2000-ci ildə Heydər Əliyevin fərmanı ilə institutun Azərbaycan Memarlıq və İnşaat Universiteti adlandırılması memarlıq təhsilinin ölkənin ali təhsil sistemindəki mövqeyinin daha da möhkəmləndirilməsi baxımından mühüm mərhələ idi.

### Memarlıq elmi və memarlarla əməkdaşlıq

Ümummilli Lider Heydər Əliyevin memarlıq və şəhərsalma sahəsində fəaliyyətində xüsusilə diqqət yetirdiyi və tələb etdiyi mühüm prinsipial yanaşma müasirliklə milli memarlıq ənənələrinin vəhdəti idi.

Ulu Öndər 10 iyun 1995-ci il tarixdə böyük Azərbaycan şairi və dramaturqu Hüseyn Cavidin məqbərəsinin və ev-muzeyinin yaradılması ilə bağlı müşavirədəki çıxışında bu prinsipi çox aydın ifadə etmişdi: “Şübhəsiz ki, biz bu layihələrdə müasirliyi nəzərə almalıyıq. Həm də burada Azərbaycanın milli memarlıq ənənələri nəzərə alınmalı və orada bunun nişanələri olmalıdır”.

Ulu Öndər hesab edirdi ki, müasir Azərbaycan memarlığı milli memarlıq əsasında inkişaf etməlidir. Dahi şəxsiyyət memarlıq abidələrinin yaradılması sahəsində düşüncələrini çox yığcam və məzmunca zəngin ifadə edirdi - memarlıq layihələri işlənərkən bu prinsipə əməl olunsun: “müasirlik də olsun, ancaq milli memarlıq ənənələri də unudulmasın. Həm gözəl, həm də sadə olsun. Gözəllik eyni zamanda sadə olanda daha gözəl görünür”.

Heydər Əliyev memarlığa xüsusi marağını belə ifadə etmişdi: “Vaxtilə memarlarla da dəfələrlə görüşmüşəm və memarlığa xüsusi hörmətim var. Burada işlədiyim dövrdə tikilən binalarda, yaranan şəhərlərdə Azərbaycan memarlığının inkişaf etdirilməsinə çalışmışam. Bakının və ayrı-ayrı digər şəhərlərimizin tikilməsi, inkişaf etdirilməsi ilə əlaqədar layihələrə memarlarla birlikdə baxıb öz mülahizələrimi bildirmişəm”.

Bu fikirlər Ümummilli Liderin memarlıq məsələlərinə münasibətinin sistemli xarakter daşıdığını göstərir. Azərbaycan memarlıq elminin ciddi elmi ənənələri var. Məşhur memarlardan Mikayıl Hüseynov, Sadıq Dadaşov, Əbdülvahab Salamzadə və başqa alim və memarlar Azərbaycan memarlıq tarixinin öyrənilməsinə mühüm töhfələr veriblər. Ulu Öndərin fəaliyyəti dövründə isə bu elmi məktəbin inkişafı davam etdirildi.

Ulu Öndər Heydər Əliyevin memarlıq siyasətində tarixi irsin qorunması xüsusi yer tuturdu. 1977-ci ildə İçərişəhərin Dövlət Tarix-Memarlıq Qoruğu elan edilməsi bu istiqamətdə mühüm addım oldu. 15 sentyabr 1981-ci ildə isə Heydər Əliyevin imzaladığı qərarla İçərişəhərdə şəhərsalma və memarlıq abidələrinin mühafizəsi, bərpa və rekonstruksiya işlərinin genişləndirilməsi, arxeoloji tədqiqatların aparılması ilə bağlı kompleks tədbirlər müəyyənləşdirildi.

Ulu Öndər Heydər Əliyev 29 dekabr 2000-ci il tarixində Yeni Əsr və üçüncü minillik münasibətilə Azərbaycan xalqına müraciətində bu dəyişikliklərə diqqət çəkirdi və həmin dövrün nəticələrini belə xarakterizə edirdi: “Azərbaycanda 1970-1985-ci illər ərzində 213 yeni iri sənaye müəssisəsi istismara verilmişdi. Bu illər ərzində Azərbaycanın paytaxtının görkəmi tamamilə dəyişmişdi. Burada müasir memarlıq üslubunda inşa edilmiş çoxsaylı binalar, mədəniyyət obyektləri, İmadəddin Nəsimiyə, Cəfər Cabbarlıya abidələr ucaldılmışdı. 14 ildə yaşayış evləri tikintisinin həcmi ağlagəlməz dərəcədə artmışdı, belə ki, bu dövrdə tikilmiş yaşayış binaları bütün Bakı şəhərinin yaşayış fonduna bərabər tutula bilərdi. Elə hesab edin ki, respublikada yeni bir Bakı salınmışdı”.

Beləliklə, Ulu Öndərin çoxşaxəli və məqsədyönlü fəaliyyəti, misilsiz tarixi xidmətləri hesabına 1969-1982-ci illərdə Azərbaycanın şəhərlərinin, xüsusilə Bakının yeni iqtisadi və sosial reallıqlara uyğun şəkildə qurulması, geniş tikinti proqramlarının həyata keçirilməsi, şəhər infrastrukturunun və ictimai məkanların inkişaf etdirilməsi təmin olundu. 1993-2003-cü illərdə isə müstəqil Azərbaycanın yeni dövlətçilik mərhələsində şəhərsalma və memarlıq məsələləri milli dövlətçilik və mədəni irsin qorunması kontekstində yeni məzmun qazandı.

Ulu Öndərin əsasını qoyduğu memarlıq və şəhərsalma strategiyası hazırda Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilir, işğaldan azad olunmuş ərazilərdə genişmiqyaslı quruculuq-bərpa işləri həyata keçirilir.

Bu siyasətin yeni mərhələsi işğaldan azad edilmiş ərazilərdə həyata keçirilən genişmiqyaslı bərpa və quruculuq proseslərində də özünü göstərir. 44 günlük Vətən müharibəsindən sonra həmin ərazilərdə innovativ yanaşmalar əsasında şəhər və kəndlərin yenidən qurulması, tarixi və mədəni irsin bərpası, müasir yaşayış mühitinin yaradılması istiqamətində böyük layihələr həyata keçirilir.

Böyük Qayıdışa dair I Dövlət Proqramı çərçivəsində işğaldan azad edilmiş ərazilərdə yeni yaşayış məntəqələrinin və şəhərlərin planlaşdırılması, “yaşıl enerji” yanaşmalarının tətbiqi, müasir infrastrukturun yaradılması bu prosesin mühüm istiqamətlərindəndir. Şuşanın tarixi memarlıq mühitinin və şəhərin özünəməxsus simasının bərpası isə milli memarlıq irsinə münasibətin xüsusi nümunəsi kimi diqqət çəkir.

**Bu baxımdan 2026-cı ilin “Şəhərsalma və Memarlıq İli” elan edilməsi Azərbaycanın memarlıq və şəhərsalma tarixinin müxtəlif mərhələlərinə yenidən nəzər salmaq, əldə olunan təcrübəni müasir çağırışlarla əlaqələndirmək və gələcəyin şəhər mühitinin formalaşdırılmasına dair yeni yanaşmaları müzakirə etmək üçün də əhəmiyyətli imkan yaradır. Memarlıq keçmişlə gələcək arasında körpüdür. Bu körpünün möhkəmliyi isə tarixi irsin qorunması, milli memarlıq ənənələrinin yaşadılması, müasir şəhərsalma prinsiplərinin tətbiqi və ən əsası, bu sahədə peşəkar kadrların yetişdirilməsi ilə sıx bağlıdır.**

**Oruc MUSTAFAYEV**

# “SABAH.CİTY”: BİLİK VƏ TEXNOLOGİYANIN İQTİSADİ VƏ SOSİAL DƏYƏRƏ ÇEVRİLMƏSİNİ DƏSTƏKLƏYƏN KOMPLEKS İNNOVASİYA PLATFORMASI






**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sentyabrın 14-də Bakıda Elm və Təhsil Nazirliyinin Yüksək Texnologiyalar Parkında qurulan “SABAH.city” innovasiya şəhərciyinin birinci mərhələsinin açılışında iştirak edib.**

## Prezident İlham Əliyev “SABAH.city” innovasiya şəhərciyinin birinci mərhələsinin açılışında iştirak edib





AZƏRTAC xəbər verir ki, elm və təhsil naziri Emin Əmrullayev dövlətimizin başçısına “SABAH.city” innovasiya şəhərciyi barədə məlumat verdi.

Bildirildi ki, layihə ümumilikdə 20 hektarda icra olunacaq. Birinci mərhələ 5 hektardan çox ərazini və ümumilikdə 20 min kvadratmetr tikili sahəni əhatə edir. Burada tikinti işlərinə ötən ilin oktyabrında başlanılıb və bir-biri ilə əlaqələndirilmiş 4 korpusdan ibarət kompleks inşa olunub. Şəhərcikdə 5 restoran, market və tədbirlər zalı, həmçinin açıq idman infrastrukturu - basketbol, futbol meydançaları və 2 padel kortu yaradılıb, açıq havada istirahət zonaları, piyada və velosiped zolaqları, parklanma sahələri təşkil edilib.

Şəhərcikdə Bakı Dövlət Universitetinin, Azərbaycan Texniki Universitetinin, Azərbaycan Dövlət Neft və Sənaye Universitetinin mühəndislik, informasiya texnologiyaları, tətbiqi elmlər istiqamətlərində təhsil alan 1500-dən çox tələbəsinin tədrisə və praktiki fəaliyyətə cəlb edilməsi nəzərdə tutulur. Şəhərciyin tam fəaliyyətə başlaması ilə isə gündəlik ziyarətçi sayının təxminən 3 min nəfər olacağı gözlənilir.

Burada ASAN Süni İntellekt Mərkəzi (ASAN AI Hub) də yaradılıb. Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin sədri Ülvi Mehdiyev Prezident İlham Əliyevə ASAN Süni İntellekt Mərkəzi, “INNOLAND” İnkubasiya və Akselerasiya Mərkəzi, həmçinin “ASAN xidmət”in “Süni İntellekt Assistent” layihəsi barədə məlumat verdi.

ASAN Süni İntellekt Mərkəzi Azərbaycanda süni intellekt sahəsində innovativ təşəbbüsləri dəstəkləmək, tədqiqatçıları, dövlət qurumlarını, özəl sektoru və fərdi istifadəçiləri vahid rəqəmsal platformada (www.asanhub.ai) bir araya gətirmək, açıq innovasiya modelini təşviq etməklə dövlət, biznes və təhsil müəssisələri arasında əməkdaşlığın gücləndirilməsi məqsədilə yaradılıb. Bu günədək ümumilikdə 50 süni intellekt həlli təqdim olunub. ASAN Süni İntellekt Mərkəzi ölkədə fəaliyyət göstərən 8 universitet, Azərbaycan Milli Elmlər Akademiyası, bir sıra nüfuzlu xarici universitetlər (Sinxua Universiteti (Çin), Oksford Universiteti (Birləşmiş Krallıq) və Boğaziçi Universiteti (Türkiyə), eyni zamanda, digər beynəlxalq nüfuzlu tərəfdaşlarla əməkdaşlıq əlaqələri qurub.

**“SABAH.city” bilik və texnologiyanın iqtisadi və sosial dəyərə çevrilməsini dəstəkləyən kompleks innovasiya platforması kimi mühüm rol oynamaqla uzunmüddətli perspektivdə insan kapitalının, tətbiqi elmin, texnologiya transferinin və Azərbaycanın innovasiya ekosisteminin rəqabət qabiliyyətinin daha da möhkəmlənməsinə töhfə verəcək**

“ASAN xidmət”in “INNOLAND” İnkubasiya və Akselerasiya Mərkəzindən bu günədək 150 startap yararlanıb, 4 startap xarici investorlar tərəfindən satın alınıb.

“Süni İntellekt Assistent” platforması “ASAN xidmət”in müxtəlif fəaliyyət istiqamətləri barədə məlumatı sürətli, sadə və adi söhbət formatında əldə etmək, təhlil və proqnozlaşdırmaq imkanı yaradır.








“SABAH.city” innovasiya şəhərciyində Bakı Dövlət Universiteti, Azərbaycan Texniki Universiteti və Azərbaycan Dövlət Neft və Sənaye Universiteti tərəfindən yaradılan ümumilikdə 13 tədris və tədqiqat laboratoriyası var. Laboratoriyalarda süni intellekt, robototexnika, kompüter elmləri, kibertəhlükəsizlik, biotexnologiya, nanobiologiya, nanofizika, kimya, telekommunikasiya və digər prioritet elmi-texnoloji istiqamətlər üzrə tədqiqat və tətbiqi fəaliyyətlərin həyata keçirilməsi nəzərdə tutulur.

Burada, eyni zamanda, 12 startapın yer aldığı “kovorkinq” (insanların və şirkətlərin işləməsi üçün nəzərdə tutulmuş ortaq iş məkanı) zonası, yerli və beynəlxalq texnologiya şirkətləri, korporativ tədqiqat və inkişaf mərkəzləri, həmçinin innovasiya ekosisteminin digər iştirakçıları üçün 22 ofis sahəsi var.

Layihənin birinci mərhələsinə 3 ali təhsil müəssisəsi ilə yanaşı, 8 texnologiya və innovasiyayönümlü şirkət, 12 startap olmaqla ümumilikdə 23 əsas ekosistem iştirakçısı cəlb edilib.

Qeyd edək ki, layihənin icrasında əsas məqsəd ölkəmizin innovasiya, elm, təhsil və yüksək texnologiyalar ekosisteminin əsas iştirakçılarını vahid məkanda bir araya gətirməklə onların qarşılıqlı fəaliyyətini gücləndirən innovasiya mühitinin formalaşdırılmasıdır. “SABAH.city” bilik və texnologiyanın iqtisadi və sosial dəyərə çevrilməsini dəstəkləyən kompleks innovasiya platforması kimi mühüm rol oynamaqla uzunmüddətli perspektivdə insan kapitalının, tətbiqi elmin, texnologiya transferinin və Azərbaycanın innovasiya ekosisteminin rəqabət qabiliyyətinin daha da möhkəmlənməsinə töhfə verəcək.

# EMİN ƏMRULLAYEV: "İNANIRAM Kİ, UZUNMÜDDƏTLİ PERSPEKTİVDƏ BU YANAŞMA EKOSİSTEMİN ÖZÜNƏMƏXSUS İSTİQAMƏTİNDƏ RƏQABƏT APARA BİLƏCƏK SƏVİYYƏYƏ ÇATMASINA KÖMƏK EDƏ BİLƏR"




**"Hər il 300-dən çox gənc azərbaycanlını kibertəhlükəsizlik, informasiya texnologiyaları və digər istiqamətlər üzrə təhsil almaq üçün dünyanın aparıcı universitetlərinə göndəririk. Bu, kiçik rəqəm olsa da, 5-10 il müddətində nəzərdən keçiriləndə artıq minlərlə insanın bu sahələr üzrə kadr kimi hazırlandığını görərsiniz. İnanıram ki, uzunmüddətli perspektivdə bu yanaşma ekosistemin özünəməxsus istiqamətində rəqabət apara biləcək səviyyəyə çatmasına kömək edə bilər"**




**"Bizim əsas hədəfimiz və məqsədimiz daha çox məhsul deyil, daha çox əlavə dəyər yaradan məhsul və xidmətlər istehsal etməkdir. Təbii ki, bunun üçün əsas məsələ istedadın, texnologiyanın və ekosistemin vəhdətidir. İstedadın, insan amilinin rolu son dərəcə böyükdür. Mən deyərdim ki, bütün bunların mərkəzində məhz insan dayanır, bir şərtlə ki, buna imkan yaradan siyasət, mühit və ekosistem formalaşdırılmış olsun. Savadlılığın yeni anlayışı texnologiya ilə çox sıx bağlıdır"**




**"Peşə məktəblərimiz, peşə proqramlarımız var. Biz yalnız öz ehtiyaclarımız üçün deyil, digər ölkələrin ehtiyacları üçün də kadr hazırlayırıq. Amma yenə də qarşıda görüləsi işlər var. 5-10 ildən sonra nələrin baş verəcəyini bilmirik. Bu, böyük sual işarəsidir. Məhz buna görə də adaptasiya və ömürboyu öyrənmə vacibdir"**



## Elm və təhsil naziri "Baku ID 2026" çərçivəsində "Azərbaycan Bacarıqlar Akseleratoru" üzrə panel müzakirəsində iştirak edib




Sentyabrın 17-də "SABAH.city" innovasiya şəhərciyində keçirilən "Baku ID 2026" innovasiya festivalı çərçivəsində İqtisadiyyat Nazirliyinin tabeliyində Dördüncü Sənaye İnqilabının Təhlili və Koordinasiya Mərkəzinin (4SİM) təşkilatçılığı ilə "Azərbaycan Bacarıqlar Akseleratoru" üzrə panel müzakirəsi keçirilib.

"Dördüncü Sənaye İnqilabı dövründə bacarıqlar üzrə prioritetlərin müəyyənləşdirilməsində dövlət və özəl sektor əməkdaşlığının gücləndirilməsi" mövzusuna həsr olunmuş panel müzakirəsində "Azərbaycan Bacarıqlar Akseleratoru"nun həmsədrləri — iqtisadiyyat naziri Mikayıl Cabbarov, elm və təhsil naziri Emin Əmrullayev, SOCAR-ın prezidenti Rövşən Nəcəf və "PAŞA Maliyyə Holdinqi"nin baş icraçı direktoru Fərid Məmmədov iştirak ediblər.

Sessiya zamanı "Azərbaycan Bacarıqlar Akseleratoru" Proqramı çərçivəsində ölkə üzrə bacarıqlar ekosisteminin təhlilinin nəticələri təqdim olunub. Təqdimatda Azərbaycanın əmək bazarının dinamikası, mövcud bacarıq boşluqları, rəqəmsal və yaşıl keçid üçün tələb olunan kompetensiyalar, ömürboyu öyrənmə, işçi qüvvəsinin mobilliyi istiqamətində təhlillərin nəticələri əksini tapıb. Nəticələr dayanıqlılıq, dəyişikliklərin idarə edilməsi, strateji düşüncə və öyrənməyə açıqlıq kimi bacarıqlar üzrə güclü insan resursları bazasının formalaşdığını göstərib.



Dünya İqtisadi Forumunun Bacarıqlar Akseleratoru Təşəbbüsü (Skills Accelerator) üzrə Fəaliyyət Rəhbəri Alison İqlşamın moderatorluğu ilə keçirilən müzakirələrdə bacarıqlar üzrə prioritetlərin müəyyənləşdirilməsində dövlət və özəl sektor arasında əməkdaşlığın gücləndirilməsi, mövcud bacarıq boşluqlarının aradan qaldırılması istiqamətində mümkün yanaşmalar nəzərdən keçirilib. Süni intellekt və data, kibertəhlükəsizlik, tətbiqi rəqəmsal bacarıqlar, yaşıl bacarıqlar istiqamətlərində bilik və bacarıqların artırılmasının gələcəyə hazır və rəqabətqabiliyyətli işçi qüvvəsinin formalaşdırılmasına töhfə verəcəyi qeyd edilib.

Bununla yanaşı, Azərbaycanın öz bilik, təcrübə və innovasiyalarını yaratmasına və ixrac etməsinə imkan verən yerli potensialın formalaşdırılmasının, eləcə də bərpa olunan enerji, xidmət sektoru və ixracyönümlü sənaye sahələri kimi strateji istiqamətlərdə zəruri bacarıq və səriştələrin gücləndirilməsinin önəmi vurğulanıb.

Qeyd edək ki, Dünya İqtisadi Forumunun təşəbbüsü ilə 2019-cu ildən fəaliyyət göstərən Bacarıqlar Akseleratoru Şəbəkəsi (Skills Accelerator Network) hazırda 45-dən çox ölkəni əhatə edir və təşəbbüs çərçivəsində indiyədək 15 milyona yaxın insanın rəqəmsal bacarıqlarının inkişafı və yeni iqtisadi imkanlara çıxışı dəstəklənib. Azərbaycan Bacarıqlar Akseleratoru təşəbbüsü DİF-in Qlobal Akselerator Şəbəkəsi çərçivəsində rəsmi olaraq 2025-ci ilin noyabrından fəaliyyətə başlayıb. Bu təşəbbüs insan kapitalının inkişafı, mövcud və gələcək bacarıq ehtiyaclarının müəyyənləşdirilməsi, əmək bazarının tələbləri ilə işçi qüvvəsinin bacarıqları arasında uyğunluğun gücləndirilməsinə xidmət edir.

"Baku ID 2026" innovasiya festivalı çərçivəsində "4Sİ Akademiyası — Milli Proqram"ın nəticələrinə həsr olunan mükafatlandırma mərasimi də keçirilib. Tədbirdə "Milli Proqram" çərçivəsində 12 nominasiya üzrə fərqlənən iştirakçı üstün nailiyyət sertifikatı ilə təltif olunub və onlara hədiyyələr təqdim edilib.

Təltifetmə mərasimində Azərbaycan Respublikası Prezidentinin köməkçisi, Azərbaycan Respublikası Prezidentinin Administrasiyasının İqtisadi məsələlər və innovativ inkişaf siyasəti şöbəsinin müdiri Şahmar Mövsümov, iqtisadiyyat naziri Mikayıl Cabbarov, elm və təhsil naziri Emin Əmrullayev, SOCAR-ın prezidenti Rövşən Nəcəf və "PAŞA Maliyyə Holdinqi"nin baş icraçı direktoru Fərid Məmmədov iştirak ediblər. Ümumilikdə nominasiyalar müxtəlif yaş və sosial qrupların təhsilə cəlb olunması, özünüinkişaf və ömürboyu öyrənmə, karyera inkişafı, regionlarda istedadların təşviqi, sahibkarlıq və startap fəaliyyəti, innovasiyada qadınların iştirakı, eləcə də əldə olunan biliklərin paylaşılması kimi istiqamətləri əhatə edib.

Tədbirdə insan kapitalının inkişafı, əmək bazarının dəyişən tələblərinə uyğun bilik və bacarıqların formalaşdırılması, eləcə də "4Sİ Akademiyası — Milli Proqram"ın bu istiqamətdə yaratdığı imkanlar barədə məlumat verilib. Proqramın birinci mərhələsinin nəticələrini və iştirakçıların nailiyyətlərini əks etdirən video nümayiş olunub.

# AZSET proqramının ilk tələbələri ilə görüş keçirilib





**"AZCON School of Engineering and Technology" — AZCON Mühəndislik və Texnologiya Məktəbinin (AZSET) ilk tələbələri ilə görüş keçirilib.**

Görüşdə elm və təhsil naziri Emin Əmrullayev, rəqəmsal inkişaf və nəqliyyat naziri Rəşad Nəbiyev, AZCON Holding-in icraçı direktoru Şahin Babayev, Azərbaycan Texniki Universitetinin rektoru Vilayət Vəliyev, Münhen Texniki Universitetinin (TUM) vitse-prezidenti Dr. Alex Braun, "TUM" professoru və AZSET proqramının akademik rəhbəri Hussam Amrouch və digər qonaqlar iştirak ediblər.

Səmimi ünsiyyət şəraitində keçən görüş zamanı AZSET-in tələbələri yeni təhsil mərhələsinə başlamaları münasibətilə təbrik olunub, onlara uğurlar arzulanıb. Tələbələrlə proqramın tədris prosesi, akademik mühit və qarşıdakı mərhələlər barədə söhbət aparılıb.

Tələbələr öz fikirlərini bölüşüb, onları maraqlandıran sualları ünvanlayıblar. Söhbət zamanı müasir mühəndislik və texnologiya sahələrində təhsil, praktiki təcrübə və sənaye ilə əməkdaşlığın əhəmiyyəti barədə danışılıb.

Tələbələrin nəzəri biliklərini praktiki bacarıqlarla möhkəmləndirməsinin, yeni texnologiyaları yaxından öyrənməsinin və gələcək peşəkar inkişaflarına indidən hazırlaşmasının vacibliyi qeyd olunub.

### AZSET haqqında

AZCON Mühəndislik və Texnologiya Məktəbi AZCON Holding və Azərbaycan Texniki Universitetinin (AzTU) əməkdaşlığı, "TUM International GmbH"nın akademik dəstəyi ilə 14 may 2026-cı il tarixində təsis edilib.

AZSET innovativ bakalavr proqramı ali təhsil və sənaye arasında əməkdaşlığın yeni mərhələsini formalaşdıraraq tələbələrin nəzəri biliklərini real iş təcrübəsi ilə birləşdirir. Beynəlxalq akademik standartlara əsaslanan bu model ölkənin gələcək texnoloji ehtiyaclarına cavab verən peşəkar kadrların hazırlanmasına xidmət edir.

# YENİ DƏRS İLİNƏ YENİ HƏDƏFLƏRLƏ



## Elm və təhsil naziri Emin Əmrullayevin yeni tədris ilinin başlanması münasibətilə keçirdiyi mətbuat konfransından

## çıxarışlar

### Bəzi ixtisaslar üzrə tədris müddəti 3 ilə endirilə bilər

Hazırda 12 illik təhsilə keçidlə mövzusu gündəmdə yoxdur. Bakalavr təhsilinin 3 ilə endirilməsi sırf ixtisaslarla bağlıdır. Elə ixtisaslar var ki, məsələn, "Turizmin təşkili", bəlkə də belə ixtisaslarda 3 il oxumaq yetərlidir. Amma hüquqşünas olmaq üçün bu, yetərlidirmi? Bu sahədə mütəxəssislər araşdırma aparmalıdır. Boloniya sisteminə keçid nəticəsində bakalavriat səviyyəsində əksər ixtisasların müddəti eyniləşdirilib. Burada ölkəmizin qoşulduğu beynəlxalq sistemlər də nəzərə alınmalıdır. 12+3 sistemi müəyyən qədər işlək ola bilər, lakin hazırda bununla bağlı qərar yoxdur. İşəgötürənlərlə müzakirələr edilib bəzi ixtisaslar üzrə tədris müddəti 3 ilə endirilə bilər, lakin bütün ixtisasları 3 ilə keçirmək müzakirə predmeti deyil.

### Şagird sayı az olan məktəblər daha böyük məktəblərlə birləşdirilir

İl ərzində 100-dən çox məktəbdə optimallaşdırma və rasionallaşdırma tədbirləri çərçivəsində daşınmalar həyata keçirilir. Optimallaşdırma çərçivəsində şagird sayı az olan məktəblər daha böyük məktəblərlə birləşdirilir. Əgər yaxınlıqda məktəb yoxdursa, o zaman şagirdlərin daşınması həyata keçirilir. Sadəcə optimallaşdırma və rasionallaşdırma çərçivəsində deyil, təmir-tikinti işləri çərçivəsində də şagirdlərin daşınması həyata keçirilə bilər.

### İşğaldan azad edilmiş ərazilərdə 15 təhsil müəssisəsi fəaliyyətə başlayır

İşğaldan azad edilmiş ərazilərdə yeni tədris ilində daha 15 təhsil müəssisəsi fəaliyyətə başlayır. Həmin təhsil müəssisələrindən 11-i məktəbəqədər, 4-ü isə ümumi təhsil müəssisələridir. Yeni müəssisələrin fəaliyyətə başlayacağı ərazilər Ağdam, Ağdərə, Xocalı, Cəbrayıl, Kəlbəcər, Xankəndi, Xocavənd və Zəngilandır. İlin sonuna doğru - oktyabr-dekabr aylarında da işğaldan azad edilmiş ərazilərdə məktəblər açılacaq.

### "Rəqəmsal bacarıqlar" və STEAM layihələrinin əhatə dairəsi genişləndirilir

"Rəqəmsal bacarıqlar" və STEAM layihələrinin əhatə dairəsi genişləndirilir. "Rəqəmsal bacarıqlar" layihəsinin tətbiq olunduğu məktəblərin sayı 30 faiz, STEAM əsaslı tədris aparılan məktəblərin sayı isə 38 faiz artırılır. "Rəqəmsal bacarıqlar" layihəsi 630 mindən çox şagirdi, STEAM əsaslı tədris isə 312 197 şagirdi əhatə edəcək.

### Maaş yanaşmaları ilə bağlı yeniliklər olacaq

Sertifikasiya Azərbaycan təhsili üçün müsbət addım idi. Demək olar ki, ibtidai sinfə gedən şagirdlərin hamısına sertifikatlaşdırmadan keçən müəllimlər dərs keçirlər. Təhsilin keyfiyyətli olmağını istəyiriksə, müəllimlərdən də yüksək tələblər gözləməliyik. Yaxın günlərdə ARTİ tərəfindən sertifikatlaşdırmanın növbəti dövriyyəsi haqqında məlumat veriləcək. Suallarda daha çox oxu bacarıqlarına diqqət yetiriləcək. Həmçinin maaş yanaşmaları ilə bağlı da yeniliklər olacaq, bu barədə ictimaiyyətə əlavə məlumat veriləcək.

### Məktəblərə 7 milyon nüsxədən çox dərslik çatdırılıb

Tədris ili başlamazdan əvvəl 7 milyon nüsxədən çox dərslik çap olunub və məktəblərə çatdırılıb. 49 adda dərsliyin məzmunu müasir standartlarla təkmilləşdirilib və ya yenilənib. Həmçinin 325 adda dərsliyin çapı yekunlaşdırılıb.

### 40-dan çox şagirdi olan siniflərin sayı heç 1 faiz deyil

40-dan yuxarı şagirdi olan cəmi 600 sinif var ki, bu da ümumi siniflərin heç 1 faizini təşkil etmir. Ölkə üzrə ümumilikdə 81 min sinif var və 40-dan çox şagirdi olan siniflərdə 24 mindən bir az çox şagird təhsil alır ki, bu da bütün şagirdlərin cəmi 1,5 faizidir. Başqa sözlə, siniflərimizin 99 faizində şagird sayı 40-dan azdır. Yəni şagirdlərimizin 98,5 faizi 40-dan az uşaq olan siniflərdə oxuyur. "Bu, Azərbaycan təhsilinin ən böyük problemi deyil" deyəndə məhz bunu nəzərdə tuturdum. Yerdə qalan 1 faizlik problemi isə oturub yerindəcə həll etməyə çalışırıq.

### SABAH çərçivəsində doktorantura təhsili alanlara yüksək təqaüd veriləcək

SABAH proqramı 19 universitetdə 46 ixtisası əhatə edir və bu ildən SABAH tədris əsaslı doktorantura ilk dəfə başlayır. SABAH proqramı olan ali məktəblərin sayı 13-dən 19-a, ixtisasların sayı isə 33-dən 46-ya yüksəldilib. 2026-2027-ci tədris ilində tələbə kvota 2620-yə artırılıb ki, ötən il bu say 2484 idi. SABAH proqramı çərçivəsində doktorantura təhsili alanlar ali məkəblərdə elmi-pedaqoji fəaliyyət imkanı əldə edəcəklər və yüksək təqaüd alacaqlar.

### Əsas məsələ süni intellektdən istifadə etmək deyil, necə istifadə etməkdir

Növbəti tədris ilində süni intellektlə bağlı işlərimizi genişləndirəcəyik. Süni intellektdən istifadə qaçılmazdır. Burada əsas məsələ istifadə etmək deyil, necə istifadə etməkdir.

### Sertifikatlaşdırma nəticəsində 90 minə yaxın müəllimin əməkhaqqısı artacaq

Sertifikatlaşdırma nəticəsində 90 minə yaxın təhsilverənin əməkhaqqısına əlavələr ediləcək. Bu il 20 minə yaxın müəllim ilk dəfə sertifikatlaşdırmada iştirak edib. 16569 müəllim ilk dəfə sertifikatlaşdırma aparılan fənlər üzrə imtahan verib. 6 minə yaxın müəllim MİQ müsabiqəsindən keçərək məktəblərdə əmək fəaliyyətinə başlayıb.

### Bu il 2,2 milyon nəfər təhsil alacaq

2026-2027-ci tədris ilində təqribən 2,2 milyon nəfər təhsil alacaq. 124 min şagird I sinfə təhsilə başlayır.

### Oxuyub-anlama bacarığının inkişafına daha çox yer verilməlidir

Oxuyub-anlama bacarığının aşağı olması o demək deyil ki, insan oxuduğunu anlamır. Bu o deməkdir ki, insan ona tanış olmayan mühitdə oxuduğu və dinlədiyi məlumatı tam anlamır. Bunun əsas səbəblərindən biri bu istiqamətdə məzmunda daha az yer verilməsidir. Oxuyub-anlama bacarığının inkişafı üçün tədrisin məzmununda bu istiqamətə daha çox yer verilməli, müəllimlər bu istiqamətə daha çox diqqət yetirməlidirlər. Həmçinin şagirdlərin oxuyub-anlama bacarığını daha çox ölçməyə ehtiyac var.

### TUM proqramına uyğunlaşdırılmış "Kompüter elmləri" ixtisası açılacaq

İki yeni elmi müəssisə yaradılıb və AZCON Mühəndislik və Texnologiya Məktəbi fəaliyyətə başlayır. Bunlardan biri AzTU nəzdində AZCON Mühəndislik və Texnologiya Məktəbində TUM (Münhen Texniki Universiteti) proqramına uyğunlaşdırılmış kompüter elmləri ixtisası mövcuddur. Növbəti tədris ilindən isə qəbul planının artırılması və "Kompüter mühəndisliyi" ixtisasının açılması planlaşdırılır. Yaradılan digər yeni elmi müəssisələr isə Qarabağ Regional Elmi Tədqiqatlar və İnnovasiyalar və Tətbiqi Elmlər institutlarıdır.

### Qarabağ Universitetinə yüksək balla daxil olanların sayı artıb

Qarabağ Universitetinə 49 ixtisas üzrə 1235 tələbə qəbul olunub ki, onların yarısı 500 və daha yüksək balla qəbul olunanlardır. Qarabağ Universitetinə qəbul olunan 603 nəfər 500-dən yuxarı bal toplayıb. Ötən il bu say 269 nəfər idi. Qarabağ Universitetinə qəbul olunanların 60 faizindən çoxu qızlardır. 196 nəfər isə 600 və daha yüksək bal toplayıb. 2025-2026-cı tədris ilinə görə, bu, 1.5 dəfə artım deməkdir.

### 356 mindən çox məzun attestat və diplomunu elektron formada alıb

"Rəqəmsal məktəb" platformasının əhatə dairəsi genişləndirilərək Bakıdan başqa 5 şəhər və rayonu əhatə etməyə başlayıb və sistemdə süni intellekt həllərinin tətbiqinə start verilib. Platformaya qoşulan məktəblərin sayı 349-dan 550-yə çatdırılıb. Layihə Bakı ilə yanaşı, Gəncə, Sumqayıt, Naxçıvan, Mingəçevir və Abşeronu əhatə edir. Ötən tədris ilində platformadan istifadə edənlərin (direktor, müəllim, şagird, valideyn) sayı 900 mindən çox olub. Təhsilverənlər üçün Sİ alətlərindən ("Microsoft Copilot", "Google Gemini", "NotebookLM") istifadə edənlərin sayı 44 mindən çoxdur. Bu il 356 mindən çox məzun ilk dəfə attestat və diplomunu "myGov" vasitəsilə elektron formada alıb.

### Peşə təhsilinə qəbul 2 dəfə artıb

Peşə təhsilinə qəbul 2021-ci illə müqayisədə 2 dəfə artıb və 2030-cu ilə qədər 21 yeni peşə tahsili müəssisəsi tikiləcək. 2021-ci illə müqayisədə peşə təhsili müəssisələrinə qəbul olanların sayı 70 faiz artıb. Peşə təhsilinə cəlb olunan qadınların payı isə 39 faiz artıb. Ümumiyyətlə, gələcəkdə peşə təhsili ali təhsilin müəyyən istiqamətlərindən geridə qalmayacaq.

### 25 ildə 4000-dək məktəb tikilib və ya əsaslı təmir olunub

Son 25 ildə 4000-dək məktəb binası tikilib və ya əsaslı təmir olunub, 1 milyondan çox şagirdin təlim şəraiti yaxşılaşıb. Son illərdə tikilən və ya təmir olunan məktəblərin sayı 600-ə yaxındır. Yeni tədris ilində 37 yeni təhsil müəssisəsi fəaliyyətə başlayacaq. 41 müəssisədə isə təmir-tikinti işləri davam edir. Daha 125 təhsil müəssisəsində layihələndirmə işləri aparılır.

### Təmayül tədris modelinin tətbiq olunduğu məktəblərin sayı 90-a çatdırılır

X-XI siniflərdə təmayül tədris modelinin tətbiq dairəsi 14 pilot məktəbdən 90 müəssisəyə qədər genişləndirilir. Pilot layihənin tətbiq olunduğu şəhər və rayonların sayı da 13-dən 46-ya çatdırılıb.

### Müəllimlik ixtisasları üzrə plan yerləri 32,8 faiz azaldılıb

Bu il ali məktəblərə 76 mindən çox şəxs qəbul olunub. Ötən illə müqayisədə bakalavriat səviyyəsində qəbul planı 2,3 faiz, yəni 1 444 yer artıb. Dövlət sifarişli yerlərin sayı isə 0,9 faiz, yəni 273 yer artıb. Magistratura səviyyəsində qəbul planı 4,7 faiz, yəni 826 yer artırılıb. Müəllimlik ixtisasları əmək bazarının real tələblərinə uyğun olaraq plan yerləri 32,8 faiz azaldılıb. Bu da 7540 yer deməkdir. Müəllimlik ixtisaslarına plan yerlərini azaltmaqla tədrisin keyfiyyətini artırmağa çalışırlar. Bəzi ali təhsil müəssisələrində müəllimlik ixtisaslarına aşağı balla qəbul olanlar MİQ imtahanından keçə bilmirlər. Ona görə də müəllimlik ixtisasının rəqabətli peşəyə çevrilməsi ölkənin xeyrinədir. Mühəndislik, xüsusilə informasiya texnologiyaları və təbiət elmləri üzrə həm ümumi, həm də dövlət sifarişli yerlərin sayı artırılır.

# Nazirliyin əməkdaşlarına dövlət təltifləri təqdim edilib





**Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin 23 iyun 2026-cı il tarixli Sərəncamı ilə Elm və Təhsil Nazirliyinin dövlət qulluğunda səmərəli fəaliyyətlərinə görə təltif olunmuş əməkdaşlarına medallar təqdim edilib.**

Elm və təhsil naziri Emin Əmrullayev təltif olunmuş əməkdaşları təbrik edib və onlara uğurlar arzulayıb.

Çıxış edən əməkdaşlar onların əməyinə verilən yüksək dəyərə görə minnətdarlıqlarını bildiriblər.

Sonra dövlət təltifləri təqdim olunub.

Qeyd edək ki, sözügedən sərəncama əsasən nazirliyin Hüquq şöbəsinin müdiri Səbuhi Mahmudov, Daxili nəzarət şöbəsinin Risklərin idarəolunması sektorunun müdiri Anar Mirzəzadə, Uşaq və gənclərin inkişafı şöbəsinin Tərbiyə məsələləri üzrə iş sektorunun baş məsləhətçisi Maral Salmanova, Təhsilin iqtisadiyyatı şöbəsinin Büdcə planlaşdırılması sektorunun baş məsləhətçisi Hökümə İbrahimova "Dövlət qulluğunda fərqlənməyə görə" medalı ilə təltif olunublar.

Əməkdaşların hər birini təbrik edir, onlara uğurlar arzulayırıq.

# Qarabağda təhsilin inkişafına dair müzakirə görüşü keçirilib



**Qarabağ Universitetinə dəstək məqsədilə Təhsilin İnkişafı Fondu (TİF) ilə Veysəloğlu Şirkətlər Qrupu arasında tərəfdaşlıq müqaviləsi imzalanıb.**

Görüşdə Qarabağ Universitetinin rektoru Şahin Bayramov, TİF-in İdarə Heyətinin sədri Nicat Məmmədli, Qarabağ Dirçəliş Fondunun İdarə Heyətinin sədri Rəhman Hacıyev, Veysəloğlu Şirkətlər Qrupunun təsisçisi və icraçı direktoru Aydın Veysəloğlu, eləcə də tərəflərin nümayəndələri iştirak ediblər.

Görüş çərçivəsində Qarabağ Universitetinin inkişafına dəstək, tələbələr üçün təqaüd imkanlarının genişləndirilməsi, mövcud layihələrin davam etdirilməsi və yeni əməkdaşlıq istiqamətləri müzakirə olunub.

Tədbirdə çıxış edən TİF-in İdarə Heyətinin sədri Nicat Məmmədli Qarabağ Universitetinin tələbələrinin dəstəklənməsi istiqamətində tərəfdaşlarla birgə həyata keçirilən layihələrdən danışıb. O bildirib ki, mövcud təqaüd proqramlarının davam etdirilməsi və genişləndirilməsi ilə yanaşı, yeni layihələrin reallaşdırılması imkanları da nəzərdən keçirilir. N.Məmmədli qeyd edib ki, bu əməkdaşlıq tələbələr üçün yeni imkanların yaradılmasına, eləcə də universitetin inkişafına töhfə verəcək.

Qarabağ Dirçəliş Fondunun İdarə Heyətinin sədri Rəhman Hacıyev Qarabağda təhsil layihələrinin dəstəklənməsinin fondun prioritet istiqamətlərindən biri olduğunu qeyd edib. O, təqaüd proqramları ilə yanaşı, gənclərin inkişafına xidmət edən yeni layihələrin dəstəklənməsinin əhəmiyyətini vurğulayıb.

Veysəloğlu Şirkətlər Qrupunun təsisçisi və icraçı direktoru Aydın Veysəloğlu isə keyfiyyətli insan kapitalının formalaşmasında təhsilin rolundan danışıb. Qeyd olunub ki, təhsilə dəstək və təhsil müəssisələri ilə əməkdaşlıq şirkətin fəaliyyət istiqamətlərindən biridir.

Qarabağ Universitetinin rektoru Şahin Bayramov çıxışında universitetə göstərilən dəstəyin əhəmiyyətini vurğulayıb. O qeyd edib ki, tərəfdaşlarla tələbələrin təqaüd proqramları vasitəsilə dəstəklənməsi, yeni layihələrin həyata keçirilməsi və innovativ təşəbbüslərin inkişaf etdirilməsi istiqamətində müzakirələr aparılıb. Rektor bildirib ki, tərəfdaş qurumlar universitet fəaliyyətə başladığı ilk gündən onun inkişafına dəstək göstərirlər. Ş.Bayramov əldə olunan razılaşmaların universitetin strateji hədəflərinə çatmasına töhfə verəcəyini vurğulayıb.

Görüşün sonunda Qarabağ Universitetinə dəstək məqsədilə Təhsilin İnkişafı Fondu ilə Veysəloğlu Şirkətlər Qrupu arasında tərəfdaşlıq müqaviləsi imzalanıb.

İmzalanan müqavilə çərçivəsində göstəriləcək dəstək Qarabağ Universitetinin inkişafına, tələbələr üçün daha əlverişli imkanların yaradılmasına və ali təhsil müəssisəsinin təhsil potensialının gücləndirilməsinə töhfə verəcək.

**Aytac BƏHRUZQIZI**

# MƏKTƏBDƏ QAZANILAN BİLİK GƏLƏCƏK ÜÇÜN BİR SƏRMAYƏDİR

## Nazir Emin Əmrullayev Bilik Gününü Bakı şəhəri 21 nömrəli tam orta ümumtəhsil məktəbində qeyd edib







**Sentyabrın 15-də Bakı şəhəri Eldar Məmmədov adına 21 nömrəli tam orta ümumtəhsil məktəbində Bilik Gününə həsr olunmuş tədbir keçirilib. Tədbirdə elm və təhsil naziri Emin Əmrullayev, Yasamal Rayon İcra Hakimiyyətinin başçısı Elşad Həsənov, Məktəbəqədər və Ümumi Təhsil üzrə Dövlət Agentliyinin direktor müavini, Bakı Şəhəri üzrə Təhsil İdarəsinin müdiri vəzifəsini müvəqqəti icra edən Nərminə Hüseynova, məktəb kollektivi, şagirdlər və valideynlər iştirak ediblər.**

Tədbir Dövlət himninin səsləndirilməsi və şəhidlərimizin əziz xatirəsinin bir dəqiqəlik sükutla yad edilməsi ilə başlayıb.

Tədbirdə çıxış edən elm və təhsil naziri Emin Əmrullayev yeni tədris ili münasibətilə müəllim və şagirdləri təbrik edib, qarşıya qoyulan əsas hədəflərdən danışıb. Nazir təhsilin keyfiyyətinin yüksəldilməsində müəllimlərin peşəkarlığının, məktəb rəhbərliyinin effektiv fəaliyyətinin və şagirdlərin öyrənməyə motivasiyasının mühüm rol oynadığını vurğulayıb.

Emin Əmrullayev şagirdlərə yeni bilik və bacarıqlar əldə etməklə yanaşı, öyrəndiklərini həyatda tətbiq etməyə, müəllimlərə isə hər bir şagirdin potensialının üzə çıxarılması istiqamətində səylərini davam etdirməyə çağırıb.

Tədbirdə çıxış edən Yasamal Rayon İcra Hakimiyyətinin başçısı Elşad Həsənov yeni tədris ili münasibətilə müəllim və şagirdləri təbrik edib, onlara təhsil prosesində uğurlar arzulayıb.

Çıxış edən məktəb direktoru Elgün Əliyev yeni tədris ili ilə bağlı hazırlıq işləri, təhsilalanların nailiyyətləri və tətbiq olunan layihələr barədə məlumat verib. Bildirib ki, 2025-2026-cı tədris ilində məktəbin tam orta təhsil pilləsi üzrə 64 məzunundan 31-i ali təhsil müəssisələrinə qəbul olub. 2026-2027-ci tədris ilindən etibarən məktəbdə X-XI siniflər üzrə 169 şagirdin cəlb olunduğu yeni təmayül tədris modelinin tətbiqinə başlanılıb.

Tədbirin sonunda şagirdlərin ifasında musiqi və bədii kompozisiyalar təqdim olunub.

Daha sonra elm və təhsil naziri məktəbdə tədris prosesi ilə tanış olub, sinif otaqlarına baxış keçirib. Nazir şagirdlərlə səmimi söhbət aparıb, onların yeni tədris ili ilə bağlı gözləntiləri, maraq göstərdikləri fənlər və gələcək planları ilə maraqlanıb.

> **"Bilik Günü hər birimizin həyatında xüsusi əhəmiyyət daşıyan günlərdən biridir. Xüsusilə birinci sinfə qədəm qoyan şagirdlər üçün bu gün həyatlarının yeni və çox vacib mərhələsinin başlanğıcıdır. İnanıram ki, bu gün bütün Azərbaycanda məktəbə ilk addımını atan hər bir uşağın yaddaşında ömrünün sonuna qədər qalacaq. İnsan həyatında orta məktəb illərinin xüsusi yeri var**
>
> **Şagirdlərimiz bu illərdə yalnız bilik və bacarıqlar əldə etmir, eyni zamanda şəxsiyyət kimi formalaşır, dostluq etməyi, ünsiyyət qurmağı, məsuliyyət daşımağı, bir-birlərinə hörmət etməyi öyrənirlər. Bu baxımdan məktəb insan həyatını formalaşdıran ən mühüm mərhələlərdən biridir. Təbii ki, məktəbin əsas vəzifələrindən biri şagirdə yaxşı təhsil vermək, onun bilik və bacarıqlarını inkişaf etdirmək, yüksək təhsil nailiyyətləri qazanmasına şərait yaratmaqdır. Amma bununla yanaşı, bizim qarşımızda daha böyük bir vəzifə də dayanır. Biz yaxşı təhsil almış insanla yanaşı, yaxşı insan, məsuliyyətli vətəndaş yetişdirməliyik**
>
> **Elm və təhsilin inkişafı hər bir ölkənin gələcəyini müəyyən edən əsas amillərdən biridir. Müasir dünyada ölkələrin rəqabət qabiliyyəti, inkişafı və dayanıqlılığı böyük ölçüdə onların insan kapitalından, elm və təhsilə verdikləri dəyərdən asılıdır. Ona görə də məktəbdə qazanılan bilik yalnız bu gün üçün deyil, gələcək həyat üçün bir sərmayədir. Bizim məqsədimiz də məhz belə bir təhsil sistemi qurmaqdır ki, burada şagird yalnız dərslikdəki məlumatları öyrənməklə kifayətlənməsin, araşdırmağı, düşünməyi, sual verməyi, müstəqil qərar qəbul etməyi və əldə etdiyi bilikləri praktikada tətbiq etməyi bacarsın**
>
> **Məktəbdə formalaşan maraq və tədqiqatçılıq ruhu gələcəkdə elmə, innovasiyaya və yeni ideyalara yol açır. Biz istəyirik ki, məktəblərimiz şagirdlərin yalnız hazır bilikləri qəbul etdiyi deyil, həm də yeni biliklərin yaranmasına maraq göstərdiyi məkanlara çevrilsin.Bu işdə isə müəllimin rolu əvəzsizdir"**



## Nazir müavini Firudin Qurbanov akademik Zərifə Əliyeva adına liseydə Bilik Günü tədbirində iştirak edib







**Sentyabrın 15-də Bakı şəhəri akademik Zərifə Əliyeva adına liseydə 2026-2027-ci tədris ilinin başlanması münasibətilə Bilik Gününə həsr olunmuş tədbir keçirilib. Tədbirdə elm və təhsil nazirinin müavini Firudin Qurbanov, Yasamal Rayon İcra Hakimiyyəti başçısının müavini Təravət Muradova, liseyin rəhbərliyi, müəllim və şagird kollektivi, valideynlər iştirak ediblər.**

Dövlət Himninin səsləndirilməsi ilə başlayan tədbirdə şəhidlərimizin əziz xatirəsi bir dəqiqəlik sükutla yad olunub.

Tədbirdə çıxış edən elm və təhsil nazirinin müavini Firudin Qurbanov müəllim və şagirdləri yeni tədris ili münasibətilə təbrik edib, müasir dövrdə təhsil qarşısında dayanan əsas çağırışlardan danışıb.

Nazir müavini qeyd edib ki, sürətlə dəyişən əmək bazarı və texnoloji inkişaf gələcəyin mütəxəssislərindən yeni bilik və bacarıqlar tələb edir. Bu baxımdan təhsil sisteminin əmək bazarının gələcək tələblərini nəzərə alması, şagirdlərin rəqəmsal və digər müasir bacarıqlara yiyələnməsinə imkan yaratması mühüm əhəmiyyət daşıyır. Firudin Qurbanov süni intellekt və rəqəmsal texnologiyaların təhsil prosesində rolunun artacağını vurğulayıb. Bildirib ki, bu texnologiyalar gələcəkdə tədrisin fərdiləşdirilməsi, şagirdlərin bilik və bacarıqlarının qiymətləndirilməsi və onların öyrənmə imkanlarının genişləndirilməsi baxımından mühüm imkanlar yaradacaq.

Çıxışda təhsil prosesində əsas diqqətin məlumatın əzbərlənməsinə deyil, şagirdlərin yaradıcı, analitik və tənqidi təfəkkürünün, müstəqil düşünmə və problem həll etmə bacarıqlarının inkişafına yönəldilməsinin vacibliyi qeyd olunub.

Firudin Qurbanov Zərifə xanım Əliyevanın elmi fəaliyyəti və oftalmologiya sahəsinin inkişafına verdiyi töhfələrə toxunaraq onun peşəkarlığı, elmə bağlılığı və yeni mütəxəssislərin yetişdirilməsinə verdiyi önəmi xüsusi qeyd edib. Bildirib ki, Zərifə Əliyevanın həyat və fəaliyyəti müasir dövrdə də gənclər üçün elmə, biliyə və peşəyə məsuliyyətli yanaşmanın nümunəsidir.

Tədbirdə çıxış edən Yasamal Rayon İcra Hakimiyyəti başçısının müavini Təravət Muradova təhsilin cəmiyyətin inkişafında mühüm rolunu vurğulayıb, şagirdlərə yeni bilik və bacarıqlar qazanmalarını, müəllimlərə isə məsuliyyətli və şərəfli fəaliyyətlərində uğurlar arzulayıb.

Liseyin direktoru Fərqanə İsayeva çıxışında yeni tədris ili münasibətilə şagird və müəllimləri təbrik edib, liseydə təhsilin keyfiyyətinin yüksəldilməsi və şagirdlərin hərtərəfli inkişafı istiqamətində həyata keçirilən işlərdən danışıb.

Çıxışlardan sonra liseyin şagirdləri tərəfindən yeni tədris ilinə həsr olunmuş musiqi və bədii kompozisiyalar təqdim edilib.

Daha sonra Firudin Qurbanov liseydə tədris prosesi ilə tanış olub, müəllim və şagirdlərlə görüşüb, onların fikirlərini dinləyib.

# Türkiyə-Azərbaycan Universitetində hazırlanan kadrlar Azərbaycanın gələcək inkişafında fəal iştirak edəcəklər




**İki ölkə Prezidentinin təşəbbüsü ilə bu universitet yaradılıb. Çox qısa müddətdə əvvəl müvafiq memorandum imzalandı, sonra cənab Prezidentin fərmanı ilə dövlət strukturlarına universitetin yaradılması ilə bağlı müvafiq tapşırıqlar verildi. Bu gün burada 300-ə yaxın tələbə təhsil alır. Türkiyənin ən aparıcı üç universiteti və Azərbaycanın iki universiteti tədris prosesinin təşkilində əsas rol oynayacaq**

**Birgə universitetin yaradılmasında əsas məqsədlərdən biri beynəlxalq inteqrasiya və akademik mobilliyin gücləndirilməsidir. Birgə universitetin yaradılması həm akademik mobilliyi, həm elmdə, həm də təhsildə inteqrasiya proseslərini gücləndirməyə imkan verir. Bu da müasir tələblərə cavab verən mütəxəssislərin hazırlanması baxımından çox əhəmiyyətlidir**

**Bu gün dünyada 4 milyondan çox robot, 600 mindən çox robotlaşdırılmış sistem mövcuddur. Buna hazır olmaq lazımdır. Nə yaxşı ki, Türkiyə-Azərbaycan Universitetində müasir texnologiyalar və süni intellektlə bağlı ixtisaslara daha çox üstünlük verilir**

**2007-2015-ci illərdə xaricdə təhsil üzrə Dövlət Proqramı çərçivəsində 327 gəncimiz Türkiyənin 20 aparıcı universitetində təhsil alıb. Hazırda 2022-2028-ci illəri əhatə edən xaricdə təhsil üzrə Dövlət Proqramı həyata keçirilir. Bu proqram çərçivəsində 197 azərbaycanlı gənc Türkiyənin 11 aparıcı universitetində bakalavriat və magistratura səviyyələrində təhsil alır”**

## Firudin Qurbanov Türkiyə-Azərbaycan Universitetinin Bilik Günü tədbirində iştirak edib

**Türkiyə-Azərbaycan Universitetində (TAU) 2026/2027-ci tədris ilinin başlanmasına həsr olunmuş Bilik Günü tədbiri keçirilib.**

Əvvəlcə universitetin foyesində Ulu Öndər Heydər Əliyevin və Mustafa Kamal Atatürkün xatirəsinə ehtiram ifadə olunub. Daha sonra şəhidlərin əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib, Azərbaycan və Türkiyənin dövlət himnləri səsləndirilib.

Tədbirin açılışında Bakı şəhəri Xətai Rayon İcra Hakimiyyətinin başçısı Rafiq Quluyev çıxış edərək Türkiyə-Azərbaycan Universitetinin iki qardaş ölkə arasında strateji əməkdaşlığın təhsil sahəsində mühüm nümunələrindən biri olduğunu bildirib. O qeyd edib ki, universitet gələcəkdə ölkənin inkişafına töhfə verəcək peşəkar və beynəlxalq səviyyəli kadrların hazırlanmasında mühüm rol oynayacaq.

TAU-nun rektoru Nəcibə Nəsibova 2026/2027-ci tədris ilinin başlanması münasibətilə professor-müəllim heyətini və tələbələri təbrik edib. Rektor bildirib ki, iki dövlət başçısının təşəbbüsü ilə yaradılan universitet Azərbaycan gənclərinə ölkə xaricinə getmədən Türkiyənin aparıcı ali təhsil müəssisələrinin — Orta Doğu Texnik Universiteti (ODTÜ), İstanbul Texnik Universiteti (İTÜ) və Hacettepe Universitetinin akademik təcrübəsindən yararlanmaq imkanı verir.

Nəcibə Nəsibova qeyd edib ki, TAU yalnız kadr hazırlığı həyata keçirən ali təhsil müəssisəsi kimi deyil, perspektivdə Azərbaycan və Türkiyənin elm, innovasiya və texnologiya sahələrində əməkdaşlığını daha da dərinləşdirən mühüm mərkəz kimi inkişaf edəcək.






Tədbirdə iştirak edən elm və təhsil nazirinin müavini Firudin Qurbanov Azərbaycan və Türkiyə arasında təhsil sahəsində əməkdaşlığın son illərdə yeni mərhələyə qədəm qoyduğunu bildirib. Nazir müavini Türkiyənin aparıcı universitetləri ilə əməkdaşlığın, birgə təhsil təşəbbüslərinin və beynəlxalq akademik imkanların genişləndirilməsinin gənclərin müasir tələblərə uyğun mütəxəssis kimi hazırlanmasına mühüm töhfə verdiyini qeyd edib.

Firudin Qurbanov Türkiyə-Azərbaycan Universitetinin iki ölkə arasında təhsil və elm sahəsində əməkdaşlığın mühüm nümunələrindən biri olduğunu vurğulayıb. O bildirib ki, Türkiyənin aparıcı universitetlərinin Azərbaycanın ali təhsil müəssisələri ilə birgə tədris prosesinə cəlb olunması akademik mobilliyin, beynəlxalq inteqrasiyanın və təcrübə mübadiləsinin gücləndirilməsi baxımından geniş imkanlar yaradır.

Nazir müavini müasir texnologiyalar və süni intellektin sürətli inkişafının ali təhsil qarşısında yeni çağırışlar yaratdığını diqqətə çatdırıb. O qeyd edib ki, rəqəmsal və robotlaşdırılmış sistemlərin genişləndiyi bir dövrdə gənclərin bu sahələr üzrə bilik və bacarıqlarının inkişaf etdirilməsi, gələcəyin texnoloji çağırışlarına hazır mütəxəssislərin hazırlanması xüsusi əhəmiyyət daşıyır. Firudin Qurbanov TAU-da bu istiqamətlərə üstünlük verilməsini əhəmiyyətli addım kimi qiymətləndirib.

Tədbirdə digər çıxış edənlər — Azərbaycan Qida Təhlükəsizliyi Agentliyinin sədr müavini Zəkiyyə Mustafayeva, Türkiyənin Azərbaycandakı səfirliyinin təhsil müşaviri Yurdagül Aydoğan, millət vəkilləri Əhliman Əmiraslanov və Zahid Oruc, TÜİB sədri Hüseyn Büyükfırat və TAU-nun Kompüter mühəndisliyi proqramının rəhbəri Ahmet Coşar Türkiyə-Azərbaycan Universitetinin iki ölkə arasında təhsil və elm əməkdaşlığının inkişafında əhəmiyyətini vurğulayıb, universitetin akademik və innovativ potensialından, eləcə də müasir tələblərə uyğun kadr hazırlığı imkanlarından danışıblar. Çıxışlarda TAU-da Azərbaycan və Türkiyənin akademik təcrübəsinin bir araya gətirilməsinin, professor-müəllim heyətinin birgə fəaliyyətinin və sənaye ilə əməkdaşlığın gələcəkdə təhsil, elm və innovasiya əlaqələrinin daha da gücləndirilməsinə töhfə verəcəyi qeyd olunub.

Tədbirdə TAU-nun qəbul imtahanlarında ən yüksək nəticə göstərən tələbəsi Fatimə Hacıməmmədli də çıxış edib. 667,5 bal toplayaraq universitetə qəbul olan tələbə TAU-nun nəzəri biliklərlə yanaşı, praktiki təcrübə, elmi tədqiqat və innovativ düşüncə imkanları yaratdığını qeyd edib.

Tədbirin sonunda qəbul imtahanlarında ən yüksək nəticə göstərən tələbələr müxtəlif hədiyyələrlə mükafatlandırılıb.

# Apellyasiya Şurasının növbəti iclası keçirilib

**Sentyabrın 18-də elm və təhsil nazirinin müavini, nazirliyin Apellyasiya Şurasının sədri Firudin Qurbanovun rəhbərliyi ilə Apellyasiya Şurasının növbəti iclası keçirilib.**

İclasda Elm və Təhsil Nazirliyinin Elm, ali və peşə təhsili şöbəsinin Elm sektorunun aparıcı məsləhətçisi və Məktəbəqədər və ümumi təhsil şöbəsinin Planlaşdırma sektorunun aparıcı məsləhətçisi vəzifələrinə namizəd Fəridə Süleymanovanın, Elm və Təhsil Nazirliyi yanında Məktəbəqədər və Ümumi Təhsil üzrə Dövlət Agentliyinin Keyfiyyət təminatı və nəzarət şöbəsinin baş məsləhətçisi vəzifəsinə namizəd Mətanət Ağayevanın, Şəki-Zaqatala Regional Təhsil İdarəsinin İnzibati təşkilat sektorunun müdiri vəzifəsinə namizədlər Mahir Zahidovun, Elvin Mehdizadənin, Ceyhun Salahovun və Vüqar Məmmədbəylinin şikayətlərinə baxılıb.

İclasda müsahibə komissiyası üzvlərinin təqdim etdiyi məlumat və videogörüntülər əsasında şikayətlər araşdırılıb, 3 şikayətin təmin edilməsi, 2 şikayətin qismən təmin edilməsi, 2 şikayətin təmin edilməməsi barədə Şura tərəfindən qərarlar qəbul olunub.

# BMU rektoru şəhid ailələrinin üzvü olan tələbələrlə görüşüb

**Bakı Mühəndislik Universitetinin (BMU) rektoru Yaqub Piriyev şəhid ailələrinin üzvləri - “Biznesin təşkili və idarə edilməsi” ixtisasının tələbəsi Aysu Əmrahova və “Beynəlxalq ticarət və logistika” ixtisasının tələbəsi Nicat Mikayılovla görüşüb.**

Görüşdə onlara BMU tələbəsi adı qazanmaları münasibətilə ən səmimi təbriklərini çatdıran rektor bildirib ki, Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə Azərbaycanın ərazi bütövlüyünün və suverenliyinin bərpa olunması xalqımızın tarixində ən şanlı səhifələrdən biridir. Bu tarixi Zəfər şəhidlərimizin canı və qanı bahasına qazanılıb. Buna görə də şəhidlərimizin əziz xatirəsini daim uca tutmaq, onların ailələrinə diqqət və qayğı göstərmək hər birimizin mənəvi borcudur. Qeyd olunub ki, şəhid ailələrinin sosial müdafiəsinin gücləndirilməsi, onların rifahının və layiqli həyat şəraitinin təmin olunması Azərbaycan dövlətinin həyata keçirdiyi siyasətin mühüm istiqamətlərindəndir. Prezidentin rəhbərliyi ilə şəhid ailələrinə göstərilən hərtərəfli diqqət və qayğı bu ailələrin cəmiyyətimizdə xüsusi ehtiramla əhatə olunmasının bariz nümunəsidir.

Rektor vurğulayıb ki, tarixi Qələbədən sonra işğaldan azad edilmiş ərazilərdə genişmiqyaslı bərpa və quruculuq işləri həyata keçirilir. Qarabağ və Şərqi Zəngəzurda yeni yaşayış məntəqələrinin salınması, müasir infrastrukturun yaradılması və əhalinin doğma yurdlarına qayıdışının təmin olunması Azərbaycanın Zəfərdən sonra qarşıya qoyduğu mühüm məqsədlərin ardıcıl şəkildə reallaşdırıldığını göstərir.



Yaqub Piriyev bildirib ki, şəhid ailələrinin üzvü olan tələbələrə hərtərəfli dəstəyin göstərilməsi BMU üçün xüsusi əhəmiyyət daşıyır. Universitet onların keyfiyyətli təhsil alması ilə yanaşı, fərdi inkişafının, sosial rifahının və gələcək karyera imkanlarının dəstəklənməsinə də xüsusi önəm verir.

Görüş zamanı tələbələrin təhsili, sosial vəziyyəti və universitet həyatında qarşılaşdıqları məsələlərlə maraqlanan rektor onların fikir və təkliflərini dinləyib. Eyni zamanda, onların təhsil aldıqları müddətdə qarşılaşa biləcəkləri sosial və digər məsələlərin operativ həlli, universitetdə həyata keçirilən layihə və təşəbbüslərə daha fəal cəlb olunması məqsədilə müvafiq tapşırıqlar verilib. Şəhid ailələrinin üzvü olan tələbələrin təhsil və gələcək karyera məsələlərinin daim diqqətdə saxlanılacağı, onların inkişafı üçün mövcud imkanlardan maksimum yararlanmasına şərait yaradılacağı vurğulanıb.

Qeyd edək ki, Aysu Əmrahova və Nicat Mikayılov Vətən müharibəsində şəhidlik zirvəsinə ucalan qəhrəmanlarımızın övladlarıdır. Aysunun atası, kiçik çavuş Saməddin Əmrahov Murovdağ istiqamətində gedən döyüşlərdə, Nicatın atası, gizir Nahid Mikayılov isə Azərbaycanın bir sıra rayonlarının işğaldan azad olunması uğrunda gedən döyüşlərdə şəhid olub. Hər iki şəhidin Vətən qarşısındakı xidmətləri dövlət tərəfindən yüksək qiymətləndirilib və onlar ölümündən sonra müxtəlif medallarla təltif ediliblər.

# NDU-da Paleobotanika muzeyi yaradılıb

**Naxçıvan Dövlət Universitetində Paleontoloji Tədqiqat Qrupu tərəfindən aparılan elmi tədqiqat işlərinin nəticəsi olaraq yaradılan Paleobotanika muzeyinin təqdimatı keçirilib.**

Tədbirdə çıxış edən Naxçıvan Dövlət Universitetinin rektoru Elbrus İsayev Paleontoloji Tədqiqat Qrupunun fəaliyyətini yüksək qiymətləndirərək paleontologiyanın Naxçıvanda yeni elmi-tədqiqat istiqaməti kimi əhəmiyyətindən danışıb. Naxçıvanın zəngin geoloji xüsusiyyətlərinin regionun qədim təbiətinin araşdırılması üçün geniş imkanlar yaratdığını bildirən rektor bu sahədə tədqiqatların davam etdirilməsinin vacibliyini vurğulayıb.

Bildirilib ki, tədqiqatların nəticələri əsasında paleobotanikaya dair kitab hazırlanıb, nüfuzlu jurnallarda bir sıra elmi məqalələr çap olunub. Paleobotanikanın Naxçıvan Dövlət Universitetində bakalavriat və magistratura səviyyələrində seçmə fənn kimi tədrisinə başlanılıb, bu isə tələbələrin yeni elmi istiqamət üzrə bilik və tədqiqat bacarıqlarının formalaşdırılmasına imkan yaradır.

Paleontoloji Tədqiqat Qrupunun üzvləri baş müəllimlər Mürsəl Seyidov, Əli Qurbanov və Biologiya kafedrasının müdiri Bəhruz Bayramov bu istiqamətdə tədqiqatların davamlı şəkildə aparılmasının nəzərdə tutulduğunu bildiriblər. Qeyd olunub ki, Naxçıvanın müxtəlif ərazilərinə, xüsusilə Havuş kəndinə dəfələrlə təşkil olunan ekspedisiyalar zamanı 440 milyon il əvvələ aid fosil qalıqları aşkar edilib. Əldə olunan nümunələr əsasında paleontoloji albomun hazırlanması planlaşdırılır.

Yeni yaradılan Paleobotanika muzeyinin universitetdə bu sahə üzrə elmi-tədqiqat və tədris fəaliyyətinin inkişafına, unikal fosil nümunələrinin qorunub nümayiş etdirilməsinə və tələbələrin elmi araşdırmalara cəlb olunmasına töhfə verəcəyi vurğulanıb.

**Aytən YUSİFOVA.**
**Naxçıvan Muxtar Respublikası üzrə təmsilçi**

# MƏKTƏBDƏ QAZANILAN BİLİK GƏLƏCƏK ÜÇÜN BİR SƏRMAYƏDİR

## Yeni tədris infrastrukturu, müasir tədris mühiti







**Sentyabrın 15-də Sumqayıt şəhəri 21 nömrəli tam orta ümumtəhsil məktəbində 2026-2027-ci tədris ilinin başlanması münasibətilə Bilik Günü tədbiri keçirilib. Tədbirdə elm və təhsil nazirinin müavini Həsən Həsənli, Sumqayıt Şəhər İcra Hakimiyyətinin başçısı Zakir Fərəcov, Abşeron-Xızı Regional Təhsil İdarəsinin müdiri İlhamə Abdullayeva, məktəb kollektivi, şagird və valideynlər iştirak ediblər.**

### Nazir müavini Həsən Həsənli Sumqayıtda Bilik Günü tədbirində iştirak edib

Dövlət Himninin səsləndirilməsi ilə başlayan tədbirdə yeni tədris ili münasibətilə müəllim və şagirdlər təbrik olunub, qarşıda duran əsas hədəflər və təhsilin inkişafı istiqamətində həyata keçirilən tədbirlərdən bəhs edilib.

Elm və təhsil nazirinin müavini Həsən Həsənli çıxışında ölkədə təhsil infrastrukturunun yenilənməsi və müasir tədris mühitinin formalaşdırılması istiqamətində görülən işlərdən danışıb. Müəllimlərin təhsil prosesində əsas aparıcı qüvvə olduğunu vurğulayan nazir müavini şagirdlərə yeni tədris ilində uğurlar arzulayıb.

Sumqayıt Şəhər İcra Hakimiyyətinin başçısı Zakir Fərəcov şəhərdə təhsil müəssisələrinin yenilənməsi və məktəb infrastrukturunun müasir tələblərə uyğunlaşdırılması istiqamətində həyata keçirilən işlərə toxunub. Eyni zamanda məktəb kollektivinə və şagirdlərə yeni tədris ilində uğurlar arzulayıb.

Abşeron-Xızı Regional Təhsil İdarəsinin müdiri İlhamə Abdullayeva isə region üzrə təhsilin inkişafı, müəllim və şagirdlərin nailiyyətlərinin artırılması istiqamətində görülən işlərdən bəhs edib.

Tədbir çərçivəsində şagirdlərin ifasında musiqi və bədii kompozisiyalar təqdim olunub.

Daha sonra qonaqlar məktəbdə yaradılmış şəraitlə tanış olub, sinif otaqlarına və digər tədris məkanlarına baxış keçiriblər.

Qeyd edək ki, 1971-ci ildən fəaliyyət göstərən məktəbdə əsaslı təmir və yenidənqurma işləri aparılıb. Məktəb müasir tədris mühitinə uyğun şəkildə yenidən istifadəyə verilib.

## Bölgələrdə təhsilin əlçatanlığı və keyfiyyəti təmin edilir

### Aparat rəhbəri Mətin Kərimli Şamaxıda Bilik Günü tədbirində iştirak edib

**Sentyabrın 15-də Elm və Təhsil Nazirliyinin Aparat rəhbəri Mətin Kərimli Şamaxı rayonunda Bilik Günü münasibətilə keçirilən tədbirdə iştirak edib.**

Nazirliyin Aparat rəhbəri və Şamaxı Rayon İcra Hakimiyyətinin başçısı Tahir Məmmədov Göylər Dağ kəndində yerləşən Əlisuvar Məmmədov adına 1 nömrəli tam orta ümumtəhsil məktəbində keçirilən Bilik Günü tədbirinə qatılıb, müəllim və şagirdləri yeni tədris ili münasibətilə təbrik edib.

Tədbirdə çıxış edən Mətin Kərimli yeni tədris ili münasibətilə müəllim və şagirdlərə uğurlar arzulayıb, təhsilin keyfiyyətinin yüksəldilməsində məktəb kollektivinin qarşısında duran vəzifələrdən danışıb. Aparat rəhbəri şagirdlərin bilik və bacarıqlarının inkişaf etdirilməsinin, onların müasir dövrün tələblərinə uyğun hazırlanmasının vacibliyini vurğulayıb.

Daha sonra nümayəndələr Şamaxı rayonunun Məlikçobanlı, Çarhan və Adnalı kənd tam orta ümumtəhsil məktəblərində, tədris prosesi ilə tanış olublar. Məktəblərdə təhsilalanların sayı, tədrisin təşkili, təhsil müəssisələrinin maddi-texniki imkanları və yeni tədris ili ilə bağlı hazırlıq işləri barədə məlumat verilib.







Nümayəndələr təhsil müəssisələrinin müəllim və şagirdləri ilə görüşüb, tədris prosesinin təşkili, təhsilalanların nailiyyətləri və məktəblərin qarşısında duran əsas məsələlər ətrafında fikir mübadiləsi aparılıb.

Görüşlər zamanı bölgələrdə təhsilin əlçatanlığının və keyfiyyətinin təmin edilməsi, məktəblərin mövcud imkanlarından səmərəli istifadə olunması və tədris mühitinin daha da yaxşılaşdırılması istiqamətində görülən işlər diqqətə çatdırılıb.

## Nazirlik rəsmiləri Bilik Günü tədbirlərində

**Sentyabrın 15-də ölkənin bütün ümumtəhsil məktəblərində yeni tədris ilinin başlanması münasibətilə tədbirlər keçirilib.**

Tədbirlərdə nazirliyin Aparat rəhbərinin müavinləri Fərzəli Qədirov və Elvin Rüstəmov, Məktəbəqədər və Ümumi Təhsil üzrə Dövlət Agentliyinin direktoru Eşqi Bağırov, Təhsilin İnkişafı Fondunun İdarə Heyətinin sədri Nicat Məmmədli, Təhsildə Keyfiyyət Təminatı Agentliyinin sədri Tural Əhmədov, nazirin müşavirləri Rüstəm Ağayev, Nizami Yusifli, Strateji planlaşdırma və təhlil şöbəsinin müdiri Leyla Xəlilova-Rzazadə, Uşaq və gənclərin inkişafı şöbəsinin müdiri Elnur Əliyev, Beynəlxalq əməkdaşlıq şöbəsinin müdiri Simuzər Feyzullayeva, Daxili nəzarət şöbəsinin müdiri Kamran İsmayılov, Hüquq şöbəsinin müdiri Səbuhi Mahmudov, Məktəbəqədər və ümumi təhsil şöbəsinin müdir müavini Nəriman Qəhrəmanlı, Daxili nəzarət şöbəsinin müdir müavini Xəqani Qurbanov, Strateji planlaşdırma və təhlil şöbəsinin müdir müavini Xuraman Mahmudova, Uşaqların Müdafiəsi İdarəsinin rəisi Məlahət Hacıyeva, rəis müavinləri Günel Səfərova və Həbib Kərimov, Satınalmalar və qrantlar sektorunun müdiri Vüsalə Əliyeva, Uşaq və gənclərin inkişafı şöbəsinin sektor müdiri Hilal Salmanov, Uşaq və gənclərin inkişafı şöbəsinin sektor müdiri Qeyrət Şirəliyev, Təhsilin iqtisadiyyatı şöbəsinin sektor müdiri Leyla Abbaslı, Məktəbəqədər və ümumi təhsil şöbəsinin sektor müdiri Gülüstan Cəfərova, Məktəbəqədər və ümumi təhsil şöbəsinin sektor müdiri Mehriban Bağırova, Məktəbəqədər və ümumi təhsil şöbəsinin sektor müdiri İlhamə Yılmaz-Qasımzadə, İnsan resursları sektorunun müdiri Lalə Əsgərli, Təhsil İnstitutunun direktor müavinləri Kənan Kərimli və İlham Cavadov, həmçinin rayon icra hakimiyyəti başçıları və nümayəndələri, ictimaiyyət təmsilçiləri, müəllim, şagird və valideynlər iştirak ediblər.




Dövlət Himninin səsləndirilməsi ilə başlanan tədbirlərdə şəhidlərimizin əziz xatirəsi bir dəqiqəlik sükutla yad olunub.

Tədbirlərdə çıxış edən qonaqlar yeni tədris ili ilə bağlı gözləntilərini bölüşüb, təhsilin keyfiyyətinin yüksəldilməsi, şagird nailiyyətlərinin yaxşılaşdırılması və məktəb mühitinin inkişafı istiqamətində həyata keçirilən tədbirlər barədə məlumat veriblər. Çıxışlarda müəllimlərin peşəkar fəaliyyətinin, şagirdlərin bilik və bacarıqlarının inkişafının, eləcə də məktəb-valideyn əməkdaşlığının əhəmiyyəti vurğulanıb.

Qeyd edək ki, 2026-2027-ci tədris ilində respublika üzrə təxminən 1,6 milyon şagird təhsil alacaq.





# GƏLƏCƏK BURADADIR

**ABŞ-nin Kembric şəhərində yerləşən Massaçusets Texnologiya İnstitutu (Massachusetts Institute of Technology - MIT) avqustun 25-də xüsusi komitəsinin hesabatını ictimaiyyətə təqdim edib. Hesabat süni intellektin tədrisdə, öyrənmədə və tədqiqatçı hazırlığında istifadəsinə həsr olunub. Universitet qeyd edir ki, bugünkü süni intellekt sistemləri bakalavr proqramlarında verilən demək olar ki, istənilən yazılı tapşırığa qənaətbəxş cavab hazırlaya bilir. Buraya riyazi və elmi məsələlər, esselər və proqramlaşdırma tapşırıqları da daxildir.**






## Süni intellekt dövründə niyə təhsil alırıq?

İllərdir tələbələrin bir hissəsi öyrənməkdən çox qiymət almağa, imtahanı keçməyə, diplom əldə etməyə çalışır. Müəllim tapşırıq verir, tələbə cavab hazırlayır, sistem də nəticəni qiymətləndirir.

Süni intellekt qiymətləndirmə mexanizminin zəif yerini ifşa edir: tələbənin təqdim etdiyi hazır iş onun bu işi hazırlamaq üçün nə qədər "işlədiyini" göstərmir. Başqa sözlə desək, tələbənin təhvil verdiyi cavablar onun öyrənmə, mühakimə və qərarvermə prosesi haqqında heç bir təsəvvür yaratmır.

Hesabatın qaldırdığı suallar Azərbaycanda da universitetlərdən peşə və özəl təhsil qurumlarına qədər hamımıza aiddir.

Biz Code Academy-də 2018-ci ildən yekun imtahanı buraxılış layihəsinin müdafiəsi ilə əvəz etmişik. O vaxt bu qərarı daha çox praktiki təhsilin və real iş mühitinə hazırlığın bir hissəsi kimi vermişdik. Süni intellekt həmin qərarda rol oynamamışdı. Bu gün isə həmin qərarın niyə doğru olduğunu daha aydın görürəm. Süni intellekt nəticənin hazırlanmasına kömək edir. Tələbə də bu nəticəni necə əldə etdiyini izah etməyi və seçdiyi həlli əsaslandırmağı bacarmalıdır.

### Düşünmə imkanı genişlənir, yoxsa düşünmə ehtiyacı aradan qaldırılır?

Hesabatda "cognitive surrender" anlayışından istifadə olunur. Mən bunu düşünməyi süni intellektə təhvil vermək kimi başa düşürəm.

Əvvəllər tələbə bir məsələni həll edə bilməyəndə bir müddət onun üzərində düşünürdü. Qeydlərinə baxır, mənbə axtarır, tələbə yoldaşlarına və ya müəllimə müraciət edirdi. Bəzən səhv yolla gedir, geri qayıdır və yenidən cəhd edirdi. İndi isə ilk çətinlikdə çatbota müraciət edib saniyələr ərzində cavab almaq mümkündür.

Amma hər dəfə çətinlik yaranan kimi düşünməyi süni intellektə həvalə ediriksə, cavabı alsaq da, öyrənmək üçün lazım olan işi özümüz görmürük. Bu da zamanla düşünmə bacarığımızın zəifləməsinə səbəb ola bilər.

MIT-in "productive struggle" ("öyrədici çətinlik") adlandırdığı məqam da budur. İlk baxışda vaxt itkisi kimi görünən çətinliyin öhdəsindən gəlməyə çalışarkən mühakimə yürütməyi və problem həll etməyi öyrənirik. Təhsildə bəzən "səmərəsiz" görünən şey məhz təhsilin özüdür.

**Nəticəyə çatmaq üçün yol getmək nəticəni əldə etmək qədər dəyərlidir.** Təhsil ocaqları bu yolları qət etməyimiz üçün şərait yaradır.



Məqsəd işi bitirməkdirsə, qısa yol axtarmaq məntiqlidir. Təhsildə isə məqsəd həmin işi görməyi öyrənməkdir. Tələbə düşünməli, sınamalı və səhvini düzəltməlidir. Bütün bunları süni intellektə həvalə edəndə iş görülür, amma tələbə o işi görməyi öyrənmir.

Hesabatda qeyd olunur ki, süni intellektdən istifadə artdıqca tələbələr müəllimlərin məsləhət saatlarına daha az qatılır, üzbəüz çalışma qrupları da azalır.

Müəllimlə söhbət edərkən, tələbə yoldaşı ilə birlikdə problem həll edərkən, laboratoriyada səhv edərkən, fikrimizi izah və müdafiə edərkən də öyrənirik. Təhsil müəssisəsinin dəyərini də dərs proqramında, insanları bir araya gətirən mühitdə, orada formalaşan intellektual çevrədə və birlikdə öyrənmək təcrübəsində daha aydın görürük.

Hesabatda hətta bəzi müəllimlərin bakalavr tələbələrini tədqiqat işlərinə cəlb etmək əvəzinə süni intellekt agentlərindən istifadə etməyi düşündüyü qeyd olunur. Araşdırma baxımından bu daha sürətli və səmərəli ola bilər. Təhsil baxımından isə tələbənin həmin işi görərkən nə öyrəndiyini də nəzərə almaq lazımdır. Süni intellekt işi üzərinə götürəndə tapşırıq avtomatlaşır və tələbə onu yerinə yetirərkən qazanacağı təcrübənin bir hissəsindən məhrum ola bilər.

Hesabatda mənə ən yaxın gələn prinsiplərdən biri insanı əvəz etmədən onun imkanlarını genişləndirməkdir ("augmentation, not automation").

Məsələn, proqramlaşdırma öyrənən tələbə süni intellektin köməyi ilə əvvəllər xeyli vaxt tələb edən bir layihəni daha qısa müddətdə hazırlaya bilər. Bunun üçün tələbə özü problemi hissələrə bölməyi, hansı həllin niyə seçildiyini anlamağı, alınan nəticəni yoxlamağı və lazım gəldikdə süni intellektin verdiyi cavabla razılaşmamağı bacarmalıdır.

Tələbənin nəyi özü bacardığını göstərə bilməyən tapşırıqlar qiymətləndirmə vasitəsi kimi artıq öz mənasını itirib.

Hesabat süni intellektin mövcud tədris sisteminə təsirini nəzərə alaraq əvvəlcə hər dərsin məqsədinə yenidən baxmağı təklif edir: tələbə bu dərsin sonunda nə bilməli, nəyi bacarmalı və nəyə dəyər verməyi öyrənməlidir? Yalnız bundan sonra tapşırıq, qiymətləndirmə və süni intellektdən istifadə ilə bağlı qaydalar müəyyən edilməlidir.

### İnsan nəyi özü öyrənməlidir?

* *Mühakimə etməyi.*
* *Sual verməyi.*
* *Müstəqil düşünməyi.*
* *Yaratmağı.*
* *Fikrini əsaslandırmağı və müdafiə etməyi.*
* *Başqaları ilə işləməyi.*
* *Səhv etməyi və səhvini düzəltməyi.*

Məsələn, layihə müdafiəsində tələbədən seçdiyi həlli başqa bir həll ilə müqayisə etməsini, komanda yoldaşının etirazına cavab verməsini və tapdığı səhvi necə düzəltdiyini göstərməsini istəyə bilərik. Cavabına uyğun əlavə suallar verəndə onun nəyi başa düşdüyünü və harada çətinlik çəkdiyini görmək də asanlaşır.

### "Bilet çəkmək"dən layihə müdafiəsinə

Bizim təhsil sistemində uzun illər "bilet çəkmək" deyilən şifahi imtahan ənənəsi olub. Həmin imtahan formasına qayıtmadan da onun əsasında duran və bu gün yenidən dəyər qazanan prinsipdən istifadə etmək olar. Tələbə bildiyini özü ifadə edirdi. Suallara cavab verərək fikrini izah etməyi bacarmalı idi.

MIT də ənənəvi ev tapşırıqlarına alternativ olaraq şifahi imtahanları, semestr portfoliolarını, auditoriyadan kənarda hazırlanmış işlərin sonradan sinifdə müzakirəsini, layihə və təcrübə əsaslı qiymətləndirməni daha çox nəzərdən keçirməyi təklif edir.

Müəllim məlumat çatdırmaqla yanaşı, getdikcə daha çox mentorluq edir, düzgün suallar verir və tələbəyə düşünməyi öyrədir. Tələbə cavab tapmaqla yanaşı, onu qiymətləndirməli, seçim etməli, arqument qurmalı və verdiyi qərarın məsuliyyətini daşımalıdır.

Əgər tələbə sonda yaxşı nəticə əldə edir, amma həmin nəticəyə necə və niyə gəldiyini başa düşmürsə, təhsil öz işini tam görmüş sayılmaz. Təhsil alırıq ki, gördüyümüz işi anlayaq, qərarlarımızı əsaslandıraq və başqaları ilə birlikdə daha yaxşı iş görə bilək.

Texnologiyalar bizə daha yaxşı düşünmək və daha böyük işləri səmərəli görmək imkanı verir. Diqqət etməli olduğumuz məqam yaratdığımız alətlərin alətinə çevrilməməkdir.

**Ülvi ASLANOV**

> **"Süni intellekt nəticənin hazırlanmasına kömək edir. Tələbə də bu nəticəni necə əldə etdiyini izah etməyi və seçdiyi həlli əsaslandırmağı bacarmalıdır**
>
> **Nəticəyə çatmaq üçün yol getmək nəticəni əldə etmək qədər dəyərlidir. Təhsil ocaqları bu yolları qət etməyimiz üçün şərait yaradır**
>
> **Proqramlaşdırma öyrənən tələbə süni intellektin köməyi ilə əvvəllər xeyli vaxt tələb edən bir layihəni daha qısa müddətdə hazırlaya bilər. Bunun üçün tələbə özü problemi hissələrə bölməyi, hansı həllin niyə seçildiyini anlamağı, alınan nəticəni yoxlamağı və lazım gəldikdə süni intellektin verdiyi cavabla razılaşmamağı bacarmalıdır**
>
> **Texnologiyalar bizə daha yaxşı düşünmək və daha böyük işləri səmərəli görmək imkanı verir. Diqqət etməli olduğumuz məqam yaratdığımız alətlərin alətinə çevrilməməkdir"**




# "PISA 2025 Azərbaycanın təhsil sistemi üçün xüsusi əhəmiyyət daşıyır"

**Azərbaycan təhsilinin beynəlxalq qiymətləndirmədəki göstəriciləri yalnız rəqəmlərdən ibarət deyil. Bu rəqəmlərin arxasında məktəblər, müəllimlər, şagirdlər və son illərdə həyata keçirilən təhsil islahatlarının nəticələri dayanır. PISA 2025-in nəticələri isə Azərbaycanın təhsil sistemi üçün həm ciddi irəliləyişin, həm də qarşıda görüləsi işlərin göstəricisi kimi diqqət çəkir. Riyaziyyatda 63, təbiət elmlərində 60, oxuda isə 40 ballıq artım ölkənin əvvəlki nəticələri ilə müqayisədə nəzərəçarpacaq dinamika nümayiş etdirdiyini göstərir. Bəs bu rəqəmlər təhsil prosesinin içində olanlar üçün nə deyir? PISA nəticələrindəki dinamikanı məktəb mühiti, müəllim əməyinin rolu və şagirdlərin inkişafı baxımından necə dəyərləndirmək olar?**

## “Nəticələr ölkənin təhsil mənzərəsini daha geniş şəkildə əks etdirməsinə imkan verir”

Bununla bağlı fikirlərini “Azərbaycan müəllimi” ilə bölüşən Bakı Slavyan Universitetində rektorun məsləhətcisi, pedaqogika üzrə fəlsəfə doktoru, dosent, Əməkdar müəllim Ənvər Abbasov PISA 2025 nəticələrinin təqdimatını ölkəmizin təhsil sistemi baxımından mühüm hadisə kimi qiymətləndirir, əldə olunan göstəricilərin yalnız uğur kimi deyil, gələcək təhsil siyasətinin istiqamətlərini müəyyənləşdirən mühüm diaqnostik vasitə kimi nəzərdən keçirilməsinin vacibliyini vurğulayır: “Hec şübhəsiz, PISA 2025 Azərbaycanın təhsil sistemi üçün xüsusi əhəmiyyət daşıyan bir təhsil hadisəsidir. Əvvəlki PISA tədqiqatlarından fərqli olaraq, 2025-ci ildə Azərbaycan ilk dəfə bu tədbirdə ölkə üzrə genişmiqyaslı şəkildə iştirak etmişdir. Əvvəlki qiymətləndirmələr, əsasən, Bakı şəhərini əhatə etdiyi halda, PISA 2025-də Azərbaycanın müxtəlif iqtisadi rayonlarında yerləşən şəhər və kənd məktəbləri də tədqiqata cəlb olunmuşdur. Bu isə nəticələrin ölkənin təhsil mənzərəsini daha geniş şəkildə əks etdirməsinə imkan verir”.

Ənvər müəllimin sözlərinə görə, PISA 2025 nəticələri Azərbaycanın ötən illərdəki qiymətləndirmələrlə müqayisədə əhəmiyyətli irəliləyiş əldə etdiyini göstərir: “Azərbaycan hər üç istiqamətdə — riyaziyyat, təbiət elmləri və oxu üzrə əvvəlki nəticələrinə nisbətən ciddi artım nümayiş etdirmişdir. Riyaziyyat üzrə nəticə 63 bal, təbiət elmləri üzrə 60 bal, oxu üzrə isə 40 bal yüksəlmişdir. Azərbaycan bu göstəricilərlə PISA 2025-də ən böyük irəliləyiş nümayiş etdirən ölkələr sırasında ikinci yeri tutmuşdur. Xüsusilə təbiət elmləri üzrə 60 ballıq yüksəliş diqqəti cəlb edir. Bu nəticə təkcə statistik artım kimi deyil, təhsildə müəyyən keyfiyyət dəyişikliklərinin baş verdiyini göstərən mühüm göstərici kimi qiymətləndirilə bilər. OECD-nin məlumatına görə, Azərbaycanın 2025-ci ildə təbiət elmləri üzrə orta nəticəsi 409 bal təşkil edib.Bununla yanaşı, nəticələr göstərir ki, Azərbaycan qarşısında hələ də ciddi inkişaf imkanları qalmaqdadır. Belə ki, şagirdlərin yalnız 48 faizi təbiət elmləri üzrə ən azı 2-ci səviyyəyə çatmış, OECD üzrə bu göstərici 74 faiz təşkil edir”.

## “Beynəlxalq qiymətləndirmə təhsil sisteminin inkişafı üçün analitik vasitədir”

Həmsöhbətimiz deyir ki, PISA 2025 Azərbaycan üçün həm uğurun, həm də inkişaf perspektivlərinin göstəricisidir. Əldə olunan yüksək dinamika son illərdə həyata keçirilən təhsil islahatlarının müəyyən nəticələr verdiyini göstərir: “Lakin PISA nəticələrinin əsl dəyəri yalnız “nə qədər bal topladıq?” sualına cavab verilməsində deyil.Daha mühüm məsələ “bu nəticələr bizə təhsil sistemimizi bundan sonra necə inkişaf etdirməli olduğumuz barədə  nə deyir?” sualına cavab tapmaqdır. Elm və təhsil naziri Emin Əmrullayevin də qeyd etdiyi kimi, PISA nəticələri təhsil siyasətinin formalaşdırılması və həyata keçirilmiş islahatların nəticələrinin qiymətləndirilməsi baxımından mühüm göstəricidir. Təhsil siyasəti yalnız rəqəmlərə və statistik göstəricilərə əsaslanmamalı, müəyyən prinsiplər və qaydalar üzərində qurulmalıdır. Bu yanaşma olduqca əhəmiyyətlidir. Çünki beynəlxalq qiymətləndirmənin nəticəsi son məqsəd deyil, təhsil sisteminin inkişafı üçün analitik vasitədir. Azərbaycanın PISA 2025-də əldə etdiyi ən mühüm inkişafyönümlü nəticə bundan ibarətdir ki, ölkəmiz təhsil sistemində dəyişiklik və irəliləyiş imkanlarının real olduğunu nümayiş etdirmişdir”.

Ənvər Abbasovun fikrincə, indi isə əsas vəzifə bu müsbət dinamikanı davamlı xarakterə çevirmək, əldə olunan nəticələrin arxasında dayanan amilləri elmi şəkildə araşdırmaq və səmərəli təcrübələri ölkənin bütün regionlarında daha da genişləndirməkdən ibarətdir. Bununla yanaşı, aşağı nəticə göstərən şagirdlərin xüsusi dəstəklənməsi, müəllimlərin peşəkar inkişafının gücləndirilməsi, təlimin daha çox tətbiq, problem həlli, tənqidi düşünmə və səriştələrin inkişafına istiqamətləndirilməsi xüsusi diqqət tələb edir: “Nəticə olaraq onu demək olar ki, PISA 2025 Azərbaycanın təhsil sistemi üçün yalnız beynəlxalq reytinq məsələsi deyil, daha geniş mənada inkişaf üçün güclü diaqnostik imkan yaradır. Əldə olunan 63 ballıq riyaziyyat, 60 ballıq təbiət elmləri və 40 ballıq oxu artımı Azərbaycan təhsilinin müsbət istiqamətdə dəyişmək potensialını göstərir. Bu uğurun davamlı olması isə nəticələrin sadəcə qeyd edilməsindən deyil, onların dərin elmi təhlilindən, uğurlu amillərin müəyyənləşdirilməsindən və növbəti təhsil siyasətlərinin həmin sübutlar əsasında qurulmasından asılıdır. Bu mənada PISA 2025 Azərbaycanın təhsil inkişafında həm mühüm nəticə, həm də yeni mərhələnin başlanğıcı kimi qiymətləndirilə bilər”.

**Samirə KƏRİMOVA**

# İNNOVATİV PEDAQOGİKA NECƏ OLMALIDIR?

**İnnovativ pedaqogikanın mühüm xüsusiyyətlərindən biri təhsilalanın fəaliyyətinin dəyişməsi, yaradıcı və tədqiqat xarakteri daşıması ilə bağlıdır. Belə ki, reproduktiv fəaliyyətdə təhsilalan mövcud məlumatı qəbul edir, yadda saxlayır və tələb olunan vəziyyətdə yenidən təqdim edirdisə, produktiv, məhsuldar fəaliyyətdə hazır biliklərə əsaslanmaqla yeni vəziyyəti araşdırmaq, problem həll etmək, fərziyyə irəli sürmək və nəticə çıxarmaq tələb olunur. Bu zaman dərsin əsas sualı “Müəllim nəyi izah edəcək?” deyil, “Təhsilalan bu dərsdə nəyi kəşf edəcək?” sualına çevrilir. Bu fərq zahirən kiçik görünsə də, pedaqoji baxımdan fundamental əhəmiyyət daşıyır. Birinci halda, təlimin mərkəzində müəllimin fəaliyyəti, ikinci halda, isə təhsilalanın öyrənmə fəaliyyəti dayanır.**



*(Əvvəli ötən sayımızda)*

## Təhsilalanın fəaliyyətinin kəşf və tədqiqat xarakteri daşıması

Kəşf yönümlü təlimdə təhsilalana hazır nəticə təqdim etmək əvəzinə, həmin nəticəyə aparan problem, sual, situasiya və ya tapşırıq təqdim edilir. Təhsilalan müşahidə aparır, məlumat toplayır, müqayisə edir, təsnif edir, əlaqələri müəyyənləşdirir, fərziyyə irəli sürür və onun doğruluğunu yoxlayır. Nəticədə bilik təhsilalan üçün sadəcə yadda saxlanılan informasiya deyil, şəxsi intellektual fəaliyyətin nəticəsinə çevrilir.

Bu yanaşma Con Dyui tərəfindən irəli sürülmüş “təcrübə yolu ilə öyrənmə” ideyası ilə səsləşir. Dyui təhsili real həyat təcrübəsindən təcrid olunmuş informasiya ötürülməsi kimi deyil, fəaliyyət və düşüncə ilə əlaqəli proses kimi nəzərdən keçirirdi. Bu baxımdan innovativ dərs təhsilalanın real problem və situasiyalarla qarşılaşmasına, həmin problemlər haqqında düşünməsinə və həll yolları axtarmasına imkan verməlidir.

Məsələn, biologiya dərsində “bitkilərin böyüməsinə hansı amillər təsir edir?” mövzusunu yalnız dərslikdəki məlumatın izahı ilə məhdudlaşdırmaq əvəzinə, şagirdlərə kiçik tədqiqat aparmaq tapşırığı verilə bilər. Onlar müxtəlif şəraitdə bitkiləri müşahidə edə, su, işıq və temperatur amillərini dəyişə, nəticələri qeyd edə və əldə etdikləri məlumat əsasında nəticə çıxara bilərlər. Bu zaman şagird həm biologiya üzrə bilik əldə edir, həm də müşahidə, ölçmə, müqayisə, təhlil və nəticə çıxarma bacarıqlarını inkişaf etdirir.

Eyni yanaşma humanitar fənlər üçün də mümkündür. Tarix dərsində müəyyən hadisənin səbəbləri hazır formada təqdim edilmək əvəzinə, müxtəlif tarixi mənbələr şagirdlərə təqdim edilə bilər. Onlar mənbələrin etibarlılığını müqayisə edir, müəllif mövqeyini müəyyənləşdirir, fərqli məlumatları qarşılaşdırır və hadisənin səbəbləri haqqında öz əsaslandırılmış qənaətlərini formalaşdırırlar.

Bu fəaliyyətlər təhsilalanın tədqiqat mədəniyyətini formalaşdırır. Tədqiqat mədəniyyəti yalnız ali təhsil və elmi fəaliyyət üçün lazım olan bacarıq deyil. Müasir insan gündəlik həyatda da çoxsaylı informasiya ilə qarşılaşır və həmin informasiyanın düzgünlüyünü qiymətləndirməli, müxtəlif mövqeləri müqayisə etməli və əsaslandırılmış qərar verməli olur. Buna görə də məktəb səviyyəsində tədqiqat yönümlü fəaliyyətin təşkili gələcək vətəndaşın intellektual müstəqilliyinin inkişafı baxımından xüsusi əhəmiyyət daşıyır.

OECD-nin “Learning Compass 2030” çərçivəsində təhsilalanın məqsəd müəyyənləşdirməsi, refleksiya aparması və məsuliyyətli fəaliyyət göstərməsi “student agency” (tələbə agentliyi) anlayışı ilə əlaqələndirilir. Bu konsepsiyada təhsilalanın öz öyrənməsinə sahib çıxması və onun istiqamətinə təsir göstərə bilməsi vacib hesab olunur.

Burada kəşf və tədqiqat anlayışlarını bir-birindən fərqləndirmək də vacibdir. Kəşf daha çox təhsilalanın əvvəldən bilmədiyi əlaqə və ya nəticəni öz fəaliyyəti vasitəsilə üzə çıxarması ilə bağlıdır. Tədqiqat isə məqsədli sualın qoyulması, məlumatların toplanması, onların təhlili və nəticənin əsaslandırılması kimi daha sistemli fəaliyyəti nəzərdə tutur. İnnovativ pedaqogika bu iki istiqamətin əlaqələndirilməsinə şərait yaratmalıdır.

Bu səbəbdən innovativ dərsdə problem situasiyası, layihə, tədqiqat tapşırığı, debat, diskussiya, case-study (hadisə araşdırması), eksperiment, müşahidə, modelləşdirmə və layihə təqdimatı kimi fəaliyyət formalarının tətbiqi məqsədəuyğundur. Lakin burada da metodların özünü məqsədə çevirmək olmaz. Hər hansı metod yalnız o halda innovativ xarakter daşıyır ki, təhsilalanın düşünmə, araşdırma, əməkdaşlıq və müstəqil qərarvermə fəaliyyətini gücləndirsin.

Beləliklə, təhsilalanın fəaliyyətinin kəşf və tədqiqat xarakteri daşıması innovativ pedaqogikanın mühüm şərtidir. Lakin təhsilalanın müstəqil fəaliyyətə keçməsi müəllimin prosesdən kənarlaşması demək deyil. Əksinə, belə bir təlim prosesində müəllimin peşəkarlığı daha çox əhəmiyyət qazanır. Çünki təhsilalanın müstəqilliyini təmin etmək üçün müəllim düzgün istiqamət seçməli, fəaliyyətin mərhələlərini planlaşdırmalı, zəruri resursları müəyyənləşdirməli və vaxtında pedaqoji dəstək göstərməlidir.

## Müəllimin fəaliyyətinin istiqamətverici və koordinasiyaedici xarakter alması

Təhsilalanın fəallığının artması müəllimin funksiyalarının da dəyişməsinə səbəb olur. İnnovativ pedaqogikada müəllim artıq yalnız informasiya ötürən şəxs deyil. O, təlimin dizayneri, fasilitatoru, mentor, məsləhətçi, istiqamətverici və koordinator funksiyalarını yerinə yetirir.

Müəllimin istiqamətverici funksiyası təhsilalanın fəaliyyətinin məqsədyönlü təşkil edilməsini nəzərdə tutur. Təhsilalanın sərbəstliyi nəzarətsiz fəaliyyət demək deyil. Əgər təhsilalana “özün araşdır” deyilir, lakin problemin qoyuluşu, məqsəd, resurslar, fəaliyyət mərhələləri və qiymətləndirmə meyarları aydınlaşdırılmırsa, bu, innovativ təlim deyil, sadəcə fəaliyyətin təhsilalanın üzərinə keçirilməsidir.

Buna görə də müəllim, ilk növbədə, öyrənmə mühitini layihələndirməlidir. O, hansı problemi təqdim edəcəyini, hansı sualların təhsilalanı düşünməyə sövq edəcəyini, hansı mənbələrdən istifadə olunacağını, fərdi və qrup fəaliyyətlərinin necə təşkil ediləcəyini, nəticənin hansı meyarlarla qiymətləndiriləcəyini müəyyənləşdirməlidir.

OECD-nin 2025-ci ildə yayımladığı “Teaching Compass” yanaşması bu dəyişikliklə xüsusilə səsləşir. Sənəddə müəllimin gələcəyin təhsilində sadəcə dəyişikliklərə uyğunlaşan icraçı deyil, kurikulumun həmmüəllifi, adaptiv ekspert və dəyişikliklərin aparıcı qüvvəsi kimi nəzərdən keçirilməsinin vacibliyi vurğulanır. Eyni zamanda müəllim avtonomiyasının, peşəkar səriştələrin və müəllimin öz fəaliyyətinə təsir imkanlarının gücləndirilməsi ön plana çəkilir.

Deməli, innovativ pedaqogikada müəllimin funksiyasının dəyişməsi onun rolunun zəifləməsi yox, peşəkar məzmununun zənginləşməsi deməkdir. Müəllim daha az danışa, lakin daha çox pedaqoji qərar verə, daha az hazır cavab təqdim edə, lakin daha çox düşünmə şəraiti yarada, daha az nəzarət edə, lakin daha çox koordinasiya edə bilər.

Müəllimin koordinasiyaedici funksiyası xüsusilə qrup və layihə işlərində aydın görünür. Qrup fəaliyyətində müəllim bütün tapşırıqları özü həll etmir. O, qrup üzvlərinin funksiyalarının bölüşdürülməsinə, əməkdaşlığın təşkilinə, fikir mübadiləsinə və ümumi nəticənin formalaşdırılmasına şərait yaradır. Beləliklə, müəllim təlim prosesinin birbaşa icraçısından daha çox onun memarına və təşkilatçısına çevrilir.

UNESCO da gələcəyin təhsilində əməkdaşlıq və birgə fəaliyyətin əhəmiyyətini xüsusi vurğulayır. Təşkilatın yanaşmasına görə, müəllimlərin öz fəaliyyətində də əməkdaşlıq, refleksiya, tədqiqat və yeni pedaqoji təcrübələrin yaradılması mühüm yer tutmalıdır.

Bu baxımdan innovativ müəllim özü də öyrənən müəllim olmalıdır. Çünki dəyişən təhsil mühitində müəllimin bir dəfə əldə etdiyi bilik və metodik repertuar bütün peşə həyatı üçün kifayət etmir. Müəllim yeni tədqiqatları izləməli, öz dərslərini təhlil etməli, təhsilalanların əks-əlaqələrini nəzərə almalı, yeni metodları sınaqdan keçirməli və uğurlu nəticələri sistemləşdirməlidir.

Belə müəllim öz fəaliyyətinə “Mən bu mövzunu necə izah etdim?” sualı ilə yanaşı, “Təhsilalan bu mövzuda nə etdi?”, “Nəyi özü kəşf etdi?”, “Hansı çətinliklə qarşılaşdı?”, “Mənim müdaxiləm onun müstəqilliyini artırdı, yoxsa azaltdı?” sualları ilə də yanaşır. Bu suallar müəllimin reflektiv fəaliyyətinin əsasını təşkil edir.

Nəticə etibarilə, innovativ pedaqogikada müəllim və təhsilalan arasında yeni tip əməkdaşlıq formalaşır. Təhsilalanın müstəqilliyi artdıqca müəllim özünü təlim prosesindən kənara çəkmir. Əksinə, daha yüksək səviyyəli pedaqoji rəhbərlik həyata keçirir. O, öyrənmənin məqsədini və istiqamətini müəyyənləşdirir, şəraiti yaradır, resursları əlaqələndirir, prosesə müşahidəçi kimi nəzarət edir, ehtiyac yarandıqda müdaxilə edir və təhsilalanın inkişafını dəstəkləyir.

Bu dəyişikliklərin məntiqi nəticəsi isə daha geniş bir yeniliyi - təhsilin məzmununun və təlim prosesinin özünün yenidən qurulmasını tələb edir. Çünki müəllimin və təhsilalanın funksiyaları dəyişirsə, əvvəlki məzmun, əvvəlki dərs modeli, əvvəlki təşkilati formalar və yalnız nəticəyə yönəlmiş qiymətləndirmə sistemi də olduğu kimi qala bilməz.

**Beləliklə, innovativ pedaqogikanın yaranmasının məntiqi zəncirində bir-biri ilə bağlı dörd mühüm dəyişiklik müşahidə olunur: öyrənmə marağı dəyişir→təhsilalanın rolu dəyişir→ müəllimin funksiyası dəyişir → təlim prosesinin bütün quruluşunun yenilənməsi zərurəti yaranır. OECD-nin müasir təhsil çərçivələri də tələbə agentliyini, birgə fəaliyyəti və müəllim agentliyini bir-biri ilə əlaqəli proseslər kimi təqdim edir. Bütün bunlar bizə artıq yeni təhsil erasının başlandığını, XXI əsrin bacarıqlarına əsaslanan təhsilin və onun fonunda müasir pedaqoji düşüncənin formalaşdığını göstərir. Bu isə öz növbəsində təlim və tədris yanaşmalarında dəyişikliklərin aparılmasını, müasir təhsil prosesinin elmi-pedaqoji əsaslarını təşkil edən innovativ pedaqogikanın yaradılmasını tələb edir.**

**Ənvər ABBASOV,**
**Bakı Slavyan Universitetində rektorun məsləhətçisi, pedaqogika üzrə fəlsəfə doktoru, dosent, Əməkdar müəllim**

# ADPU 2030 - TƏHSİL ELMLƏRİ MƏRKƏZİ HƏDƏFİNƏ DOĞRU İNAMLA

**Bu yazını oxuduqca, oxucuda rəqəmlərin həddindən çox olması təəssüratı yarana bilər, ancaq biz bu rəqəmlərlə statistik ardıcıllıq vermək yox, onları danışdırmaq niyyətindəyik. Çünki rəqəmlər bəzən gələcəyin konturlarını strateji mətnlərdən daha aydın göstərir. Gəlin Pedaqoji Universitetin bu günü və gələcəyə uzanan yolunu rəqəmlərin dili ilə oxuyaq. Bu baxımdan 2026/2027-ci tədris ilinin tələbə qəbulu ilə bağlı Azərbaycan Dövlət Pedaqoji Univer-siteti - yaxud mənim daha çox sevdiyim ifadə ilə sadəcə Pedaqoji Universitet - ilə bağlı üç göstərici diqqət çəkir: qəbul planının ADPU şəbəkəsi üzrə 97 faiz dolması, dövlət sifarişi üzrə keçid balı ən azı 500 olan 14 ixtisas və ölkədə pedaqoji ixtisaslara ayrılan yerlərin təxminən 36 faizinin ADPU şəbəkəsinin payına düşməsi. Ayrı-ayrılıqda bunlar qəbul xəbərləridir. Birlikdə isə daha böyük mənzərə yaradır: Pedaqoji Universitet ikinci yüzilliyinə tarixi nüfuzla yanaşı real tələb, geniş coğrafiya və yenilənmə gücü ilə daxil olur. 105 il əvvəl altı tələbə ilə fəaliyyətə başlayan universitet üçün əsas sual keçmişi necə anlatmaq deyil: ADPU ikinci yüzilliyində hara gedir? Yenilənmiş “ADPU-2030” planından cavab aydın olur: müəllim hazırlığı missiyasını qorumaqla təhsil və sosial elmlər üzrə tədqiqat aparan, rəqəmsal imkanları inkişaf etmiş, məktəb və əmək bazarı ilə canlı əlaqə quran, beynəlxalq rəqabətə açıq universitetə çevrilmək. Başqa sözlə, ADPU milli təhsil elmləri mərkəzi kimi möhkəmlənməyi qarşısına strateji hədəf kimi müəyyənləşdirib.**




## Rəqəmlərin arxasındakı etimad

2026/2027-ci tədris ili üzrə ölkənin 20 ali məktəbində pedaqoji ixtisaslara 8580 yer ayrılıb. Onların 3075-i ADPU və Şəki, Quba, Şamaxı, Ağcabədi, Cəlilabad filiallarının payına düşür. Yəni hər 100 yerdən 36-sı bu şəbəkədədir. Bu, üstün mövqe ilə yanaşı böyük məsuliyyətdir. ADPU-da proqram, pedaqoji təcrübə və ya müəllim hazırlığı üzrə verilən qərar bir kampusda qalmır; müxtəlif bölgələrdə məktəblərin gələcək kadr keyfiyyətinə təsir edir.

Tələbin miqyası da diqqətəlayiqdir. Universitet və beş filial üzrə ayrılmış ümumilikdə 3605 yerdən 3491-i ilkin yerləşdirmədə dolub. ADPU üzrə plan 96,93, filiallarda 96,62 faiz dolub; Quba və Cəlilabad 100 faizlik nəticə göstərib. ADPU-da dövlət sifarişli qəbulun payı ötən illə müqayisədə 56,68 faizdən 62,10 faizə yüksəlib. Şəbəkə üzrə orta bal 384,63, median 402,6, maksimum nəticə 649,4 bal olub.

Yüksək nəticəli abituriyentlərin seçimləri isə digər mühüm siqnaldır. Dövlət sifarişi üzrə keçid balı ən azı 500 olan 14 ixtisasdan 4-ü ADPU-da, 10-u filiallardadır. ADPU-da müxtəlif bölmələr üzrə 45, filiallarda isə 43 bakalavriat proqramının təqdim olunduğunu nəzərə alsaq, bu ADPU şəbəkəsi üzrə 88 proqramdan 14-də - başqa sözlə proqramların 16 faizə qədərində dövlət sifarişi üzrə keçidin 500 balın üzərində olması deməkdir.

Bu proqramlara 232 nəfər dövlət sifarişi ilə qəbul olunub; ən yüksək hədd isə Şəki filialında xarici dil müəllimliyi üzrə 614 baldır.

ADPU-da yeni açılmış riyaziyyat və fizika müəllimliyində 15 yerin hamısının dolması, bu ixtisasda maksimum nəticənin 637,1 bala çatması isə fənlərarası müəllim hazırlığına real marağı göstərir. Yaxud magistratura səviyyəsində bu il ilk dəfə qəbul aparılan Azərbaycan dilinin xarici dil kimi tədrisi, Fəlsəfə tarixi və Əhalinin müxtəlif qrupları ilə sosial iş proqramlarının hər üçü üzrə ayırılan yerlər tam dolub.

Yüksək bal və planın dolması etimadın, seçim rəqabətinin göstəricisidir; nəticə keyfiyyəti isə qəbuldan sonra yaranır. Tələbə hansı kurikulumla qarşılaşacaq, məktəbi nə qədər yaxından tanıyacaq, mentor dəstəyi alacaqmı? Tədqiqat, rəqəmsal etika və inklüziv sinif bacarıqları qazanacaqmı?

“ADPU-2030”un əsl sınağı bu suallara məzunların fəaliyyəti ilə verilən cavabdır. Qəbul nailiyyəti yolun sonu deyil, keyfiyyətli müəllim hazırlığı üçün yüksək başlanğıcdır.

Keyfiyyətin başqa başlanğıc nöqtəsi isə tələbənin səsidir. Universitetin ictimaiyyətə açıqladığı 2025-ci ildə keçirilən sorğuda 5137 tələbənin 81 faizi müəllimlərin tədris bacarığından tam razı qaldığını, 73 faizi proqramların lazımi mütəxəssis bacarıqları qazandırdığını bildirir. Bununla yanaşı, 9 mindən çox açıq rəy təcrübənin genişləndirilməsi, karyera və təcrübə imkanları, infrastruktur və proqramların yenilənməsi barədə konkret gözləntiləri əks etdirir. Məmnunluq rəqəmləri nailiyyəti göstərir; açıq rəylərin idarəetmə qərarına çevrilməsi isə keyfiyyət sisteminin yetkinliyinin göstəricisi kimi qiymətləndirilə bilər.

## Müəllim hazırlığından təhsil elmləri ekosisteminə

Universitetin 2030-cu ilə qədərki inkişaf yolunu göstərən strateji planı 6 strateji məqsəd və 34 hədəf üzərində qurulub. ADPU 2030-cu ilədək sosial elmlər üzrə dünyanın ən yaxşı 1000 universiteti sırasına daxil olmağı, klassik və dördüncü nəsil universitet modelinə doğru irəliləməyi nəzərdə tutur. Belə universitet yalnız diplom vermir; bu universitet bilik yaradır, onu cəmiyyətə ötürür, məktəb və əmək bazarı ilə ortaq və qabaqlayıcı həllər hazırlayır, sosial təsiri ölçür. Bu yanaşmanın mərkəzində yenə müəllim dayanır, onun ətrafında isə təhsil elmləri ekosistemi qurulur.

Diqqətəlayiq məqam odur ki, təhsil elmləri mərkəzi dedikdə daha çox ixtisas nəzərdə tutulmur. O, kurikulum və qiymətləndirmə, təhsil psixologiyası, inklüzivlik, məktəb liderliyi, rəqəmsal pedaqogika və təhsil siyasəti üzrə bilik yaradır; həmin biliyi məktəb üçün proqrama, müəllim üçün metodikaya, rəhbər üçün qərar alətinə çevirir. Strategiyada pedaqogika, psixologiya və digər sosial elmlər üzrə tədqiqat-konsaltinq mərkəzləri yaratmaq, ADPU-nu milli və beynəlxalq “beyin mərkəzi”nə çevirmək niyyəti buna görə xüsusi əhəmiyyət daşıyır.

İxtisas hazırlığının profilində aparılan şaxələndirmə həmin ekosistemin bir hissəsidir. Hazırkı planda 530 qeyri-pedaqoji yer ümumi qəbulun 14,7 faizini, 3075 nəfərlik pedaqoji istiqamətlər 85,3 faizini təşkil edir. Bu Pedaqoji Universitetin 2030-cu ilədək qəbul planının 30 faizinin sahəyə yaxın qeyri-pedaqoji ixtisaslara şaxələndirilməsi hədəfinə doğru mühüm addımdır. Bunu müəllim hazırlığından geri çəkilmək kimi deyil, pedaqoji nüvəni genişləndirmək kimi oxumaq lazımdır. Sosial, humanitar və təbiət elmləri təhsil və insan inkişafı missiyasına xidmət etdiyi ölçüdə ADPU-nu gücləndirəcək. Meyar proqram sayı yox, yaradılan əlavə dəyərdir.

Bu modeldə həlledici məkan məktəbdir. Universitetin strategiyasında mentorluq institutunun formalaşdırılması, baza məktəblərinin sayının artırılması, əmək bazarı nümayəndələrinin proqramların hazırlanmasına cəlbi və pedaqoji təcrübənin təkmilləşdirilməsi nəzərdə tutulur. Tələbə məktəblə yalnız son kursda tanış olmamalıdır. Müşahidə, birgə dərs planlaşdırması, mentor dəstəyi, müstəqil tədris və refleksiya bütün hazırlıq dövrünə yayıldıqda nəzəri bilik peşə davranışına çevrilir. Təhsil elmləri mərkəzi üçün məktəb təcrübə ünvanı ilə yanaşı, ortaq öyrənmə və tədqiqat tərəfdaşıdır.

## Elmin son ünvanı Azərbaycan məktəbidir

Tədqiqat dinamikası transformasiyanın ikinci dayağıdır. 2024-cü ildə ADPU-nun 197 müəllifi üzrə Scopus-da 408 məqalə yayımlanıb. 2026-cı ilin ilk yarısında isə əməkdaşların 20-dək məqaləsi Q1 və Q2 kvartilli jurnallarda dərc olunub. Strateji plan beynəlxalq bazalarda ölkə üzrə ilk beşliyə daxil olmağı, ən azı bir universitet jurnalını uyğun indeksə çıxarmağı, qrant və sifarişli tədqiqat gəlirini büdcənin 5 faizinə çatdırmağı hədəfləyir.

Lakin təhsil elmləri mərkəzinin fərqi məqalə sayından sonra başlayır. Hər araşdırma bir suala cavab verməlidir: nəticə Azərbaycan məktəbinin hansı problemini anlamağa və həll etməyə kömək edir? OECD-nin (İqtisadi Əməkdaşlıq və İnkişaf Təşkilatı) 2025-ci il hesabatı göstərir ki, müəllimə sadəcə elmi məqaləyə çıxış vermək yetmir. Sübutu şərh edən, yerli şəraitə uyğunlaşdıran, tədqiqatçı ilə məktəb arasında əlaqə yaradan bilik vasitəçiliyi lazımdır. Baza məktəbi, beş filial və geniş məzun coğrafiyası ADPU-ya bunu milli miqyasda qurmaq üstünlüyü verir.

Məktəblərlə birgə tədqiqat gündəliyi formalaşdırmaq bu üstünlüyü təsirə çevirə bilər. Oxu savadlılığı, STEAM tədrisi, inklüziv sinif, formativ qiymətləndirmə, müəllim rifahı, bölgələrdə kadr davamlılığı və süni intellekt (Sİ) dövründə akademik dürüstlük kimi məsələlər tətbiqi araşdırmalar tələb edir. Nəticələr isə jurnalda qalmamalıdır: müəllim üçün bələdçiyə, direktor üçün qərar çərçivəsinə, cəmiyyət üçün açıq göstəriciyə, qərarlar üçün analitik sənədə çevrilməlidir. Elm sinfə çatanda nəşr göstəricisi sosial təsir qazanmış olur.




## Rəqəmsal müəllim, insani məktəb

ADPU-da elektron sənəd dövriyyəsi, “MyADPU”, “Moodle” əsaslı e-tədris və elektron kitabxana rə-qəmsal transformasiyanın infrastrukturunu formalaşdırır. Universitet bu infrastrukturu təkmil-ləşdirməklə e-universitet, sistem inteqrasiyası, məlumatəsaslı idarəetmə, heyətin rəqəmsal savadlılığı, tələbələrdə Sİ və kibertəhlükəsizlik bacarıqlarının inkişafı istiqamətində hərtərəfli inkişafı hədəfləyir.

Avropa Komissiyasının “DigCompEdu” çərçivəsi rəqəmsal səriştələri peşəkar əməkdaşlıqdan tədris və qiymətləndirməyə qədər altı sahədə 22 kompetensiya ilə izah edir. UNESCO-nun 2024-cü il Sİ çərçivəsi isə etik və insanmərkəzli istifadəyə diqqət çəkir. Bu baxımdan rəqəmsal səriştələr sadəcə müvafiq proqramlardan istifadə etmək demək deyil. Bu nöqtədə Sİ və rəqmsal bacarıqlarla bağlı fənnlərin tətbiqi ilə yanaşı ADPU kurikulum, tapşırıq dizaynı, qiymətləndirmə və akademik dürüstlük siyasətlərini birlikdə yeniləməlidir. Bu zaman isə, texnologiyanın müəllimin empatiyasını, pedaqoji məsuliyyətini və şagirdlə canlı münasibətini əvəz etmədiyi unudulmamalıdır.

## Filiallardan dünyaya açılan inkişaf xətti

Beş filial ADPU-nun sadəcə coğrafi genişliyi deyil, strateji üstünlüyüdür. Keçid balı ən azı 500 olan 14 ixtisasdan 10-nun filiallarda yerləşməsi bölgələrdə güclü pedaqoji təhsilə real tələbi göstərir. Növbəti addım filialları yerli ehtiyacı araşdıran, müəllimlərə qısamüddətli inkişaf kursları təklif edən, praktik tədqiqat aparan və uğurlu metodikanı bölgələr arasında yayan regional laboratoriyalara çevirməkdir. O zaman nəticə yalnız qəbul sayı ilə deyil, əməkdaşlıq edilən məktəb, dəstəklənən müəllim və yerli təhsilə təsirlə ölçüləcək.

Regional güc beynəlxalq görünürlüklə tamamlanır. ADPU “QS World University Rankings 2027”də 1201-1400 aralığındadır. “Times Higher Education”ın “2026 Sustainability Impact Ratings” nəticələrində universitet ümumi sıralamada 1001-1500, “Keyfiyyətli təhsil” kateqoriyasında isə 601-800 aralığında yer alır. Bunlar ilk ciddi müqayisə nöqtəsidir. Proqramların beynəlxalq akkreditasiyası, mobillik və əcnəbi tələbələrin payını 5 faizə çatdırmaq hədəfləri gerçəkləşdikcə reytinq məqsəd deyil, daxili keyfiyyət dəyişikliyinin xarici əksi kimi özünü büruzə verəcək.

Beynəlmiləlləşmənin artıq işləyən nümunəsi də var. Corc Vaşinqton Universiteti ilə magistratura səviyyəsində ikili diplom proqramı 2020-ci ildən həyata keçirilir və 2025-ci ilin sonunadək 122 məzun verib; proqram üzrə əməkdaşlığın 2030-cu ilədək davam etdirilməsi nəzərdə tutulur. Bu təcrübənin dəyəri yalnız xarici diplomda deyil. Birgə kurikulum, fərqli akademik mədəniyyət, xarici müəllimlərlə iş və beynəlxalq keyfiyyət tələbləri digər proqramların yenilənməsi üçün də nümunə yarada bilər. Uğurlu tərəfdaşlıq ayrıca layihə kimi qalmadıqda bütün universitetin öyrənmə resursuna çevrilir.

## 2030-a gedən yol nəticə ilə ölçülür

ADPU-nun bu yaxınlarda elan etdiyi 2026/2027-ci tədris ili üçün strateji plana uyğun yeni iş planı modelində hər fəaliyyətin strateji planla əlaqəsi, baza və hədəf dəyəri, müddəti, məsulu və nəticəni təsdiqləyən mənbələr əks olunur. Bu, “nə etdik?” sualını “nə dəyişdi?” sualı ilə tamamlayır. Beş il sonra tədbirlərin uzun siyahısı deyil, tələbə, müəllim, məktəb və tədqiqat mühitində yaranan ölçülə bilən fərq əsas hesabat olmalıdır. Yəni universitet 2030 hədəfləri üçün özünün aydın nəticə indikatorlarını müəyyənləşdirib və artıq bunu iş planları səviyyəsində tətbiq etməyə başlayır.

Yüksək nəticəli və dövlət sifarişli tələbələrin payı; məzunların əmək fəaliyyətinə başlamaları; tələbə rəyləri üzrə görülən tədbirlər; məktəblərlə birgə tədqiqatların praktik istifadəsi; qrant gəlirləri; rəqəmsal səriştələr; beynəlxalq mobillik və ortaq nəşrlər; filialların regional təsiri kimi vahid nəticə bazasının tətbiqi ilə əsas indikatorlar üzrə müvəffəqiyyət dərəcələri bir araya gətirilə bilər. Bu isə nəticələrdən öyrənərək inkişaf etmək üçün güclü məlumatəsaslı qərar mexanizimi deməkdir.

Önəmli bir nöqtə odur ki, inkişaf zəncirvari xarakterli prosesdir, yəni bir sahədəki uğur digər halqalarda dəstəkləndikdə yekun mütləq uğura çata bilərik: yüksəkballı tələbə güclü proqram və mentorluqla qarşılaşmalı; proqram məktəb sübutuna söykənməli; tədqiqat rəqəmsal məlumatla dəstəklənməli; nəticə regionda və beynəlxalq tərəfdaşlıqda paylaşılmalıdır. Təhsil elmləri mərkəzi bu dövrənin işlədiyi universitetdir: bilik yaradır, müəllim hazırlığına gətirir, məktəbdə sınaqdan keçirir, ölçür və kurikuluma qaytarır.

ADPU-nun 2030-cu ilə inamı yalnız 105 illik tarixə söykənmir. Onun ölçüləbilən əsasları var: pedaqoji qəbul planının 36 faizini əhatə edən şəbəkə, son illər ardıcıl olaraq 100 faizədək dolma səviyyələri, keçid balı ən azı 500 olan ixtisasların dinamikası, beynəlxalq nəşr fəallığı, rəqəmsal xidmətlər, ilk qlobal reytinq mövqeləri və strategiyanı illik fəaliyyətə bağlayan idarəetmə modeli kimi halqalar. Vəzifə isə bu gücləri vahid təsir xəttində birləşdirməkdir.

2030-cu ildə uğurun inandırıcı təsviri belədir: ADPU daha çox proqramı olan deyil, Azərbaycan məktəbi haqqında sistemli bilik yaradan; müəllimi fənn biliyi ilə yanaşı tədqiqat, rəqəmsal etika, inklüzivlik və liderlik baxımından hazırlayan; paytaxtla regionlar arasında keyfiyyət körpüsü quran; elmi nəticəni sinfə çatdıran universitetdir. Bugünkü göstəricilər real başlanğıc verir. Yolun davamı ənənəyə sədaqəti, faktlara söykənən özünütəhlili və yeniliyə cəsarəti birlikdə tələb edir. Təhsil elmləri mərkəzi hədəfi bu üç xəttin 2030-a qədər ardıcıl birləşdirilməsindən keçir.



**Taleh MİRZƏYEV**
**ADPU-nun İctimaiyyətlə əlaqələr və marketinq şöbəsinin müdiri, təhsil və media mütəxəssisi, tədqiqatçı, təhsil idarəetməsi üzrə doktorant**

## Tələbələr nəqliyyatda bonuslar qazanacaq




**TələbəPlus kart istifadəçiləri üçün yeni bonus imkanı təqdim olunub. Artıq tələbələr BakıKart üzrə gediş haqqını TələbəPlus kartı ilə ödədikdə 10% bonus əldə edə biləcəklər. Bonus həm fiziki TələbəPlus kartı, həm də QR ödənişləri zamanı keçərlidir.**

**Beləliklə, ilin sonunadək tələbələr BakıKart üzrə nəqliyyat ödənişlərinə xərclədikləri məbləğin 10%-ni bonus şəklində gündəlik say limiti olmadan geri qazana biləcəklər.**

**Bilik Günü münasibətilə təqdim olunan yeni bonus imkanı tələbələrin gündəlik nəqliyyat xərclərinin müəyyən hissəsini geri qazanmasına şərait yaratmaqla yanaşı, TələbəPlus kartının gündəlik istifadəsi üzrə üstünlükləri də genişləndirir.**

**Qeyd edək ki, təhsil işçiləri üçün Təhsilin İnkişafı Fondu tərəfindən istifadəyə verilən TəhsilPlus kartı ilə ictimai nəqliyyatdan istifadə zamanı da güzəştlər təqdim olunur. TəhsilPlus istifadəçiləri “City Card” və BakıKart üzrə QR ödənişlərində 10% endirimdən yararlana bilirlər.**

**TələbəPlus kartı Təhsilin İnkişafı Fondu, Kapital Bank və “Visa” tərəfindən tələbələr üçün həyata keçirilən birgə layihədir. Kart tələbələrə nəqliyyatdan istifadə ilə yanaşı, müxtəlif xidmət və məhsullardan yararlanarkən bonus və endirim imkanları təqdim edir.**

## Tacikistanda təhsil üçün təqaüd proqramı elan edilib



**Tacikistan Respublikasının Təhsil və Elm Nazirliyi 2026—2027-ci tədris ili üzrə Azərbaycan Respublikası vətəndaşları üçün təqaüd proqramına qəbul elan edir.**

**Proqram “Azərbaycan Respublikasının Elm və Təhsil Nazirliyi ilə Tacikistan Respublikasının Təhsil və Elm Nazirliyi arasında illik təhsil kvotalarının qarşılıqlı ayrılması haqqında Saziş” çərçivəsində həyata keçirilir.**

**Hökumətlərarası Təqaüd Proqramları (HTP) çərçivəsində Azərbaycan vətəndaşlarına Tacikistanın ali təhsil müəssisələrində bakalavriat, magistratura və doktorantura səviyyələri üzrə təhsil almaq imkanı təqdim olunur. Tədris dili tacik, rus və ingilis dilləridir.**

# Azərbaycanlı gəncin adı Toronto Universitetində əbədiləşdirilib



**Kanadada yaşayan soydaşımız, Toronto Universitetinin Mühəndislik Elmləri proqramının məzunu Emil Kərimov peşəkar uğurları ilə yanaşı, təhsilin inkişafına verdiyi töhfə ilə də diqqət çəkir. Soydaşımızın adı universitetin həyətində daş lövhədə əbədiləşdirilib.**

"Azərbaycan müəllimi" Diasporla iş üzrə Dövlət Komitəsinə istinadən xəbər verir ki, soydaşımız məzun olduqdan sonra da Toronto Universiteti ilə əlaqələrini qoruyub saxlayır. O, sözügedən ali təhsil müəssisəsinə etdiyi ianə ilə təhsilin inkişafına və gələcək nəsillər üçün imkanların genişləndirilməsinə çalışır. Bu təşəbbüs onun yalnız peşəkar fəaliyyəti ilə deyil, həm də cəmiyyətə fayda vermək və təhsil sahəsinin inkişafına dəstək olmaq istiqamətindəki mövqeyinin bariz nümunəsidir.

Emil Kərimovun uğur yolu Kanadada yaşayan azərbaycanlıların əldə etdikləri nailiyyətlərin və yaşadıqları cəmiyyətin inkişafına verdikləri töhfələrin parlaq göstəricilərindən biridir. Onun təhsilə və gələcək nəslin inkişafına olan diqqəti azərbaycanlı gənclər üçün örnəkdir.




**Samirə KƏRİMOVA**

# UNICEF: İqlim dəyişikliyinə görə hər 10 şagirddən biri təhsildən kənarlaşıb




**UNICEF-in 106 ölkə və ərazinin məlumatları əsasında hazırladığı "Learning Interrupted: Global Snapshot of Climate-Related School Disruptions in 2025" ("Təhsildə fasilələr: 2025-ci ildə iqlim hadisələri səbəbindən məktəblərdə yaranan fasilələrə qlobal baxış") adlı hesabatda bildirilir ki, ötən il dünyada 171 milyondan çox şagird iqlim hadisələrinin təsirinə məruz qalıb.**

Hesabata görə, fırtınalar, daşqınlar, istilik dalğaları, quraqlıq və meşə yanğınları məktəblərin bağlanmasına, təhsil müəssisələrinin zədələnməsinə, dərs müddətinin azalmasına, davamiyyətin aşağı düşməsinə və şagirdlərin təhsildən yayınma riskinin artmasına səbəb olub.

UNICEF-in icraçı direktoru Ketrin Rassel bildirib ki, iqlim hadisələri milyonlarla uşaq üçün yalnız dərslərin pozulması ilə nəticələnmir, eyni zamanda onların məktəblərini dağıdır, ailələrinin yaşayış şəraitini dəyişir və ən həssas uşaqları daha çətin vəziyyətə salır.

UNICEF-in məlumatına görə, iqlim hadisələrindən təsirlənən uşaqların 75 faizi aşağı və aşağı-orta gəlirli ölkələrdə yaşayır. Bu ölkələrdə təhsil sistemləri iqlimlə bağlı fövqəladə vəziyyətlər zamanı təhsilin davamlılığını təmin etmək üçün çox vaxt kifayət qədər resursa malik olmur.

## Qızların təhsilinə təsir daha yüksəkdir

Hesabatda iqlim hadisələrinin qızların təhsilinə xüsusi təsir göstərdiyi vurğulanır.

UNICEF qeyd edir ki, təhlükəsizliklə bağlı risklər, məktəblərdə təhlükəsiz şəraitin olmaması və erkən nikahlar qızların təhsildən yayınma ehtimalını artırır.

Hesabata görə, bu amillər erkən nikah riskini də artıra və məktəblər yenidən fəaliyyətə başladıqdan sonra qızların təhsilə qayıtmasını çətinləşdirə bilər.

## Təhsildə fasilələrin uzunmüddətli iqtisadi nəticələri

UNICEF-in hesablamalarına görə, 2025-ci ildə iqlim hadisələri səbəbindən təhsili pozulan şagirdlərin gələcək həyatları ərzində ən azı 200 milyard dollar gəlir itkisi ilə üzləşməsi mümkündür.

Fond hökumətləri və tərəfdaşlarını iqlim və digər ekoloji təhlükələrə daha davamlı yeni təhsil müəssisələrinin tikintisinə daha çox vəsait ayırmağa çağırıb.

UNICEF bildirir ki, məktəblərin iqlim risklərinə davamlılığının artırılması uşaqların fövqəladə hallar zamanı da təhsillərini davam etdirməsinə və uzunmüddətli nəticələrin qarşısının alınmasına kömək edə bilər.

**Nərmin MƏMMƏDZADƏ**


## Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyi

# Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universiteti

### aşağıda adıçəkilən kafedrada vakant vəzifəni tutmaq üçün müsabiqə

## ELAN EDİR:

*Təsviri sənət kafedrası*
*Kafedra müdiri – 1 yer*

Müsabiqədə fakültədə kadr hazırlığı aparılan ixtisaslara uyğun ən azı 5 il elmi-pedaqoji təcrübəyə və peşə-ixtisas hazırlığına, elmi ad və elmi dərəcələrə malik Azərbaycan Respublikası vətəndaşları, həmçinin mövcud qanunvericiliyin tələbləri gözlənilməklə xarici ölkə vətəndaşları iştirak edə bilərlər.

İddiaçılar müsabiqənin keçirilməsi üçün sənədlərini Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetinə təqdim etməlidirlər.

**Ünvan:** Bakı şəhəri, AZ 1065, İnşaatçılar 39
**Telefon:** 599-00-54 (daxili-100)

***REKTORLUQ***



## "AZƏRBAYCAN MÜƏLLİMİ"

**Qəzet 1934-cü ildən çıxır**

**Baş redaktor**
Sarvan İbrahimov

**Reklam və elanlar:** Mob.: (010) 253-30-86; elan@media.edu.az

**Ünvan:** AZ-1052, Bakı şəhəri, Nərimanov rayonu, Fətəli xan Xoyski, 109

Qəzet "Azərbaycan müəllimi"nin kompüter mərkəzində yığılır və "Azərbaycan nəşriyyatı" MMC-də çap olunur

Qəzet hər həftənin şənbə günü çıxır

**Bank hesabımız**
Azərbaycan Beynəlxalq Bankı Şərifzadə filialı
Kodu: 805142 VÖEN: 9900001881
M/h: AZ 03 NABZ 01350100000000002944
S.W.I.F.T.: IBAZAZ 2X

"Azərbaycan müəllimi" qəzeti redaksiyası
Hesab № AZ80 IBAZ38060019443164986350
VÖEN: 1300397831

**Lisenziya:** № 022327 **İndeks:** 0003

**Tiraj:** 35127 **Sifariş:** 1224

**Məsul növbətçi:** O.Mustafayev


# Etibarsız sayılır

**Masallı rayon** Boradigah qəsəbə 2 nömrəli tam orta məktəbi 2022-ci ildə bitirmiş Abiyeva Məleykə Rafiq qızına verilmiş E-484172 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Azərbaycan Dənizçilik Kolleci** tərəfindən 2021-ci ildə Əhmədov Ülvi Əliəfsər oğluna verilmiş AA-156836 nömrəli subbakalavr diplomu və diploma əlavə itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 95 nömrəli tam orta ümumtəhsil məktəbi 2008-ci ildə bitirmiş Ağayevə Aysel Saruxan qızına verilmiş B-484751 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Neftçala rayon** Astanlı kənd tam orta ümumtəhsil məktəbi 2006-cı ildə bitirmiş Məmmədov Şahin Əfruz oğluna verilmiş B-338730 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Daşkəsən şəhər** 1 nömrəli tam orta ümumtəhsil məktəbi 2013-cü ildə bitirmiş İsmayılov Emil Üzeyir oğluna verilmiş A-285090 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Bakı Slavyan Universitetinin nəzdində Məktəb-Lisey Kompleksini** 2017-ci ildə bitirmiş Hacıyev Hacı Ülvi oğluna verilmiş E-000695 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 195 nömrəli tam orta məktəbin IX sinfini 2010-cu ildə bitirmiş Güleymanova Aidə Soltan qızına verilmiş A-369705 nömrəli ümumi orta təhsil haqqında şəhadətnamə, 2012-ci ildə verilmiş A-116122 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 163 nömrəli tam orta məktəbi 2000-ci ildə bitirmiş Şabanova (Yaman) Səyalı Səadətdin qızına verilmiş A-452082 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Sumqayıt şəhər** 27 nömrəli tam orta ümumtəhsil məktəbi 2018-ci ildə bitirmiş Əliyev Niyaz Oktay oğluna verilmiş E-122338 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Şəmkir rayon** Ağlavaşlı kənd tam orta məktəbi 2006-cı ildə bitirmiş Qasımov Tural Qinyaz oğluna verilmiş 324475 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Ağdərə rayon** Umudlu kənd tam orta ümumtəhsil məktəbi 2003-cü ildə bitirmiş Rəcəbova (Məmmədova) Gülnar İlham qızına verilmiş A-650149 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Lənkəran şəhər** 3 nömrəli tam orta ümumtəhsil məktəbi 2022-ci ildə bitirmiş Malızadə Ataş Azər oğluna verilmiş E-480950 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Qubadlı rayon** Yuxarı Mollu kənd tam orta ümumtəhsil məktəbin IX sinfini 2022-ci ildə eksternat qaydada bitirmiş Məmmədzadə Əli Səid oğluna verilmiş C-648651 nömrəli ümumi orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Zaqatala şəhər** 2 nömrəli tam orta məktəbi 2016-cı ildə bitirmiş Abbasov Əli Natiq oğluna verilmiş A-584588 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Hacıqabul rayon** Ə.Ələskərov adına Talış kənd tam orta ümumtəhsil məktəbin IX sinfini 2006-cı ildə bitirmiş Cəfərov Pənah Valeh oğluna verilmiş A-408472 nömrəli əsas təhsil haqqında şəhadətnamə itdiyi üçün etibarsız sayılır.

**Neftçala rayon** Abasalılı kənd tam orta ümumtəhsil məktəbi 2005-ci ildə bitirmiş Cəbrayılov Kamran Cəbrayıl oğluna verilmiş B-134373 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**2 nömrəli Bakı Baza Tibb Məktəbi** tərəfindən 1985-ci ildə Mustafayev Faiddin Hacımurad oğluna verilmiş 3T-049155 nömrəli diplom itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 328 nömrəli tam orta məktəbin IX sinfini 2013-cü ildə bitirmiş Əsgərov Şamil Surac oğluna verilmiş A-487297 nömrəli ümumi orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Gəncə şəhər** 19 nömrəli tam orta məktəbi 1998-ci ildə bitirmiş Süleymanova (Seyidova) Sevinc Mircəmil qızına verilmiş A-261520 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Şamaxı rayon** texniki humanitar və təbiət fənləri təmayüllü internat tipli liseyi 2012-ci ildə bitirmiş Xəlilov Abdulla Yaqub oğluna verilmiş A-142476 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 53 nömrəli tam orta ümumtəhsil məktəbi 2012-ci ildə bitirmiş Məlikli İzzət Arif qızına verilmiş A-116188 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Qazax şəhər** M.Hüseyn adına humanitar və təbiət fənləri təmayüllü məktəb-liseyin IX sinfini 2009-cu ildə bitirmiş Fatimi Pərinsə Mahir qızına verilmiş A-868111 nömrəli ümumi orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Naxçıvan Tibb Məktəbi** tərəfindən 2000-ci ildə Əzimova Xavər Yusif qızına verilmiş AB-II-055579 nömrəli diplom itdiyi üçün etibarsız sayılır.

**Şamaxı şəhər** 6 nömrəli tam orta ümumtəhsil məktəbi 2003-cü ildə bitirmiş Beybudova Ülkər Həbib qızına verilmiş A-682668 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Cəbrayıl rayon** Əmirvarlı kənd tam orta ümumtəhsil məktəbi 2020-ci ildə bitirmiş İmaməliyev Rəşid Rayət oğluna verilmiş E-347370 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**İsmayıllı rayon** Kəlbənd kənd tam orta ümumtəhsil məktəbi 2004-cü ildə bitirmiş Qasımov Şəhriyar Əkbər oğluna verilmiş B-097937 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Qəbələ şəhər** 1 nömrəli tam orta məktəbi 2006-cı ildə bitirmiş Əhmədov Pərviz Tapdıq oğluna verilmiş 296004 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 191 nömrəli tam orta ümumtəhsil məktəbi 2012-ci ildə bitirmiş Cavadova (Axundova) İlhamə İlham qızına verilmiş A-093069 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 243 nömrəli tam orta ümumtəhsil məktəbi 2016-cı ildə bitirmiş Qocayev Fazil Maxsud oğluna verilmiş A-515526 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 117 nömrəli tam orta məktəbi 2008-ci ildə bitirmiş Qasımov Elxan Şirinağa oğluna verilmiş B-530602 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Şəki şəhər** 11 nömrəli tam orta məktəbi 2009-cu ildə bitirmiş Əsgərova (Rüstəmzadə) Aygün Rövşən qızına verilmiş B-641945 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Şəki şəhər** 20 nömrəli tam orta məktəbi 2025-ci ildə bitirmiş Səfərova Xədicə Rəsul qızına verilmiş E-827744 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Qəbələ şəhər** 1 nömrəli tam orta məktəbi 2007-ci ildə bitirmiş Gülməmmədov İlkin Əsədullah oğluna verilmiş 401771 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Gədəbəy rayon** Pərizamanlı kənd tam orta məktəbi 1993-cü ildə bitirmiş Məsmalıyeva Xalidə Akif qızına verilmiş 071721 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 25 nömrəli tam orta məktəbi 2025-ci ildə bitirmiş Nəcəfov Çingiz Taleh oğluna verilmiş E-805568 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Saatlı rayon** Məzrəli kənd tam orta ümumtəhsil məktəbin IX sinfini 2013-cü ildə bitirmiş Mənsimova (Yaqubova) Səbnəm Yadigar qızına verilmiş A-362466 nömrəli ümumi orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Masallı rayon** Çayqıraq kənd ümumi orta ümumtəhsil məktəbin IX sinfini 1999-cu ildə bitirmiş Rzayeva Firuzə Şadulla qızına verilmiş B-128257 nömrəli ümumi orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Oğuz rayon** Filfilli kənd tam orta məktəbi 1983-cü ildə bitirmiş Çiyniyeva Şahnaz Nurəddin qızına verilmiş AK-847970 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 158 nömrəli tam orta məktəbi 2024-cü ildə bitirmiş Heydərov Məhəmməd Məhəmməd Cəmil oğluna verilmiş E-664150 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**M.Ə.Sabir adına Bakı Pedaqoji Texnikumu** tərəfindən 1995-ci ildə Kərimova (İsmayılova) Xalidə Alik qızına verilmiş AB-II-001398 nömrəli fərqlənmə diplomu itdiyi üçün etibarsız sayılır.

**Goranboy rayon** (Qasım İsmayılov rayonu) Xoylu kənd tam orta məktəbin qiyabi sinfini 1988-ci ildə bitirmiş Əsgərova (Quliyeva) Afət Teyyub qızına verilmiş 148180 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Sumqayıt şəhər** 3 nömrəli tam orta ümumtəhsil məktəbi 2021-ci ildə bitirmiş Babazadə Mehti Ramin oğluna verilmiş E-414883 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Yevlax şəhər** 8 nömrəli tam orta ümumtəhsil məktəbi 1990-cı ildə bitirmiş Xəlilova Mehriban Yavər qızına verilmiş 085872 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Azərbaycan Dövlət İqtisad Universiteti** tərəfindən 2021-ci ildə Səməndərli Vəli Abdulla oğluna verilmiş C-094658 nömrəli fərqlənmə bakalavr diplomu və diploma əlavə itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 62 nömrəli məktəb-liseyi 2017-ci ildə bitirmiş Səməndərli Vəli Abdulla oğluna verilmiş E-101578 nömrəli tam orta təhsil haqqında fərqlənmə attestatı itdiyi üçün etibarsız sayılır.